QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 164 (5636) **1 sentyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Bir nömrəli yeni nəsil şəxsiyyət vəsiqəsi Prezident İlham Əliyevə təqdim olunub



Səh 2


“Çinlə Azərbaycan arasında münasibətlər dostluq və tərəfdaşlıq üzərində qurulub”



3

Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib



4

Baş nazir: “İnanıram ki, Azərbaycana səfər iqtisadi əməkdaşlığımıza yeni impuls verəcək”



4

Azərbaycanda heyvandarlığın inkişafına dair Dövlət Proqramı hazırlanır



9

“Ölkəmizdə içməli sudan israfçılıqla istifadə olunur”



12

Rusiya Ermənistanın sabiq müdafiə nazirini Yerevana verməyəcək



4

5

Məktəb bazarlığı neçəyə başa gəlir?



14

Əli Kərimli “tərksilah” olunur



16

Azərbaycanda keçiriləcək növbəti Qran-Prinin tarixi açıqlanıb



# Bir nömrəli yeni nəsil şəxsiyyət vəsiqəsi Prezident İlham Əliyevə təqdim olunub







Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanır. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi avqustun 31-də Prezident İlham Əliyevə təqdim olunub.

Dövlətimizin başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirdi. Prezident İlham Əliyev elektron imza qoydu. Bir nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlətimizin başçısına təqdim olundu.

Daxili işlər naziri Ramil Usubov və iqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat verdilər.

Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı - çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər. Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və iki "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.

## Rəsmi xronika

Prezident İlham Əliyev Vasif Babazadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında geologiya elminin inkişafında böyük xidmətlərinə görə Vasif Məmməd Ağa oğlu Babazadə "Şərəf" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Elbrus İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilsin.

* * *

Prezident İlham Əliyev İosif Kobzonun ailəsinə başsağlığı verib. Məktubda deyilir: "İosif Davıdoviç Kobzonun vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi. Sizə, İosif Davıdoviçin bütün doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən dərin hüznlə başsağlığı verirəm. Ustad müğənni, görkəmli ictimai-siyasi xadim İosif Kobzonun adı sovet və Rusiya mədəniyyətinin şanlı salnaməsinə əbədi daxil olub. Onun yüksək şövqlə oxuduğu mahnılar neçə-neçə nəsillərin qəlbində xüsusi yer tutur.

Çoxşaxəli istedadı, bənzərsiz səsi və fitri musiqi duyumu sayəsində İosif Kobzon bütöv bir dövrün rəmzinə çevrilib. Dövlət Dumasında məsul vəzifə tutarkən o, mədəni irsin qorunub saxlanmasına və zənginləşməsinə fəal kömək edirdi. İosif Kobzon Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafına, mehriban münasibətlərin möhkəmlənməsinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının "Şöhrət" və "Dostluq" ordenləri ilə, həmçinin "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif edilib. Bu ağır itki ilə əlaqədar sizin dərdinizə səmimi qəlbdən şərik olduğumu və sizinlə bərabər kədərləndiyimi bildirirəm".

* * *

Prezident İlham Əliyev Slovakiya Prezidenti Andrey Kiskaya təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Slovakiya Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. İnanıram ki, Azərbaycan-Slovakiya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir. Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

* * *

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli Şavkat Miromonoviç, Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Bu gün qardaş Özbəkistan müstəqillik yolu ilə inamla irəliləyərək, dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafı sahəsində mühüm nailiyyətlər qazanır. Özbəkistanın beynəlxalq aləmdə nüfuzu daim artır. Ölkələrimiz arasındakı əlaqələr ortaq milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlətlərarası münasibətlərimizin belə möhkəm təməllər üzərində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi məmnunluq doğurur.

İnanıram ki, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi və daha da dərinləşməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Hörmətli Şavkat Miromonoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

# “Çinlə Azərbaycan arasında münasibətlər dostluq və tərəfdaşlıq üzərində qurulub”

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Çinin nümayəndə heyəti ilə görüşüb*







***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva avqustun 31-də Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, qonağın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini ifadə edən Birinci vitse-prezident Mehriban Əliyeva Li Syaolinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri kimi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə yönələn fəaliyyətinə görə ona təşəkkürünü bildirdi.***

Birinci vitse-prezident Çinlə Azərbaycan arasında münasibətlərin dostluq və tərəfdaşlıq üzərində qurulduğunu, qarşılıqlı hörmətə əsaslandığını vurğuladı. Mehriban Əliyeva iki ölkənin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq etdiyini bildirdi, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu diqqətə çatdırdı. Heydər Əliyev Fondunun Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası ilə uğurlu əməkdaşlıq etdiyini bildirən Mehriban Əliyeva ötən il iki qurum arasında dostluq və əməkdaşlıq Memorandumunun imzalandığını və bu istiqamətdə artıq işlərin başlandığını diqqətə çatdırdı.

“Bu il Çində yaradılan yay düşərgəsini Azərbaycandan olan uşaqlar da ziyarət etdilər, Çində Azərbaycan mədəniyyət günləri, o cümlədən Azərbaycan sərgiləri təşkil edildi”, - deyən Mehriban Əliyeva gələcək əməkdaşlıq üçün böyük potensialın olduğuna əminliyini ifadə etdi. Birinci vitse-prezident Çinin dünyanın ən güclü iqtisadiyyatlarından birinə malik olduğunu qeyd etdi və bu sahədə birgə fəaliyyət üçün yaxşı imkanların olduğunu söylədi. Nəqliyyat sahəsində mövcud olan geniş potensialı qeyd edən Mehriban Əliyeva Azərbaycanın artıq iri mərkəzə çevrildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə Asiyaya ən qısa yolun çəkildiyini bildirdi. Həm Azərbaycanın, həm də Çinin tarixən Böyük İpək Yolu üstündə yerləşdiyini və bunun əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını vurğuladı. Bu yaxınlarda Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına müşahidəçi dövlət kimi üzv olmaq üçün ərizə təqdim etdiyini, bu ilin may ayında təşkilatın mənzil-qərargahında Azərbaycan mədəniyyət günlərinin uğurla keçirildiyini xatırladan Birinci vitse-prezident ölkəmizə dəstəyə və göstərilən yüksək münasibətə görə təşəkkürünü çatdırdı. Mehriban Əliyeva Azərbaycanla Çin arasında dostluq körpülərinin yaradıldığını və Li Syaolinin səfərinin yeni tərəfdaşlıq münasibətlərinin qurulmasına mühüm töhfə verəcəyinə əminliyini bildirdi.

Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin Mehriban Əliyeva ilə görüşündən şərəf hissi duyduğunu deyərək, bu görüşün gələcək əməkdaşlığın müzakirəsi baxımından əhəmiyyətini qeyd etdi. İlk dəfədir Azərbaycana səfər etdiyini deyən qonaq paytaxtımızın onda dərin təəssürat yaratdığını, Heydər Əliyev Mərkəzi və oradakı sərgilərlə tanışlıqdan məmnunluğunu ifadə etdi. Qonaq Heydər Əliyev Fondu ilə əməkdaşlığa görə təşəkkürünü bildirdi. Görüşün sonunda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonaqlara xatirə hədiyyəsi təqdim etdi.

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib

***Avqustun 31-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair aidiyyəti qurumların iştirakı ilə iclas keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda iki məsələ - əhalinin real gəlirlərinin artırılması məqsədilə əmək ödənişləri sisteminin təkmilləşdirilməsi və iqtisadi risklərin qarşılanması əsasında dayanıqlı sosial ödənişlər sisteminin formalaşdırılması; regionlarda aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi və əhalinin əmək bazarına çevik inteqrasiyası üzrə təkliflər müzakirə olunub.***





Azərbaycanda son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf modelinin formalaşmasına diqqəti yönəldən Baş nazir Novruz Məmmədov bu istiqamətdə böyük işlərin görüldüyünü vurğulayıb. Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə dinamik quruculuq işlərinin getdiyini, makroiqtisadi sabitliyin təmin olunmasında, əhalinin rifah halının yaxşılaşmasında, o cümlədən sosial sferada, sənayedə, aqrar sektorda, infrastrukturun təkmilləşdirilməsində, özəl sahədə ciddi irəliləyişlərin olduğunu deyən Baş nazir Novruz Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı inkişaf strategiyası Azərbaycanın iqtisadi qüdrətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin təmin edilməsi dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son illər ərzində əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, qanuni mənafelərinin qorunması, əmək müqaviləsi üzrə öhdəliklərinin icrasına hüquqi təminatın yaradılması istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilib.

Gündəlikdə duran məsələlərə dair əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzəsi dinlənilib. Sonra hər iki məsələ ətrafında geniş fikir mübadiləsi aparılıb. Əhalinin real gəlirlərinin artırılması məqsədilə əmək ödənişləri sisteminin təkmilləşdirilməsi və iqtisadi risklərin qarşılanması əsasında dayanıqlı sosial ödənişlər sisteminin formalaşdırılması ilə bağlı müzakirələr olub. Həmçinin regionlarda aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi və əhalinin əmək bazarına çevik inteqrasiyasına dair təkliflər nəzərə alınmaqla, əmək bazarının mövcud vəziyyətinin regionlar üzrə təhlil edilməsi, hər bir region üzrə əmək resurslarının balansının tərtib olunması, arazi məşğulluq proqramlarının hazırlanması, regionlarda məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələrinin fəaliyyətinin genişləndirilməsi və əlaqələndirilməsi, səyyar əmək yarmarkalarının təşkil edilməsi qərara alınıb.

İclasa yekun vuran Baş nazir Novruz Məmmədov ölkə əhalisinin rifah halının yaxşılaşdırılması üçün sosial sahənin prioritet mahiyyətini diqqətə çatdıraraq, sosialyönümlü məsələlərin həlli zamanı qarşıya çıxan problemlərin vaxtında aradan qaldırılması və iclasda müzakirə olunan məsələlərin icrası ilə bağlı Nazirlər Kabinetinin aidiyyəti qurumlarına müvafiq tapşırıqlar verib.

## Rusiya Ermənistanın sabiq müdafiə nazirini Yerevana verməyəcək



Yerevan 2008-ci il 1 mart hadisələri ilə bağlı MDB-nin dövlətlərarası axtarışına daxil edilən Ermənistanın sabiq müdafiə naziri Mikael Arutyunyanın ölkəyə təhvil verilməsi barədə Moskvaya rəsmi müraciət ünvanlayıb. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, hazırda müraciətlə bağlı məsələ Rusiyanın hüquq mühafizə orqanlarında müzakirə olunur. Mikael Arutyunyan 2002-ci ildən Rusiya vətəndaşı olduğu üçün ekstradisiyadan imtina olunması barədə ilkin qərar qəbul edilib. RF konstitusiyasına əsasən, Rusiya cinayət məsuliyyətinə cəlb edilməsi üçün öz vətəndaşlarını xarici ölkələrə təhvil vermir.

## Baş nazir: "İnanıram ki, Azərbaycana səfər iqtisadi əməkdaşlığımıza yeni impuls verəcək"

Gürcüstan və Azərbaycan strateji tərəfdaşdırlar. Biz birlikdə qlobal əhəmiyyətli bir sıra layihələri reallaşdıra bilmişik. AZƏRTAC Gürcüstan hökuməti administrasiyasının mətbuat xidmətinə istinadla xəbər verir ki, bu sözləri Gürcüstanın Baş naziri Mamuka Baxtadze Azərbaycana səfərinin nəticələrini şərh edərkən söyləyib.

Baş nazir Azərbaycanda çox məhsuldar görüşlər keçirdiyini bildirərək deyib: "Biz iqtisadi münasibətlərimizi daha da möhkəmləndirəcək yeni layihələri nəzərdən keçirdik, konkret məsələləri qeyd etdik. Bu il bizim ticarət dövriyyəmiz təqribən bir milyard dollar civarında olacaq. Düşünürəm ki, yaxın iki ildə bu rəqəmi 50-60 faizədək artıra biləcəyik". Gürcüstanın Baş naziri iki ölkə arasında yeni birgə müəssisələrin yaradılması barədə də razılığın əldə olunduğunu xüsusi vurğulayıb. O bildirib ki, Gürcüstan regionda Avropa İttifaqı və Çin ilə azad ticarət rejimi olan yeganə ölkədir. "Azərbaycan Gürcüstanın ən iri investorlarından biridir və bu istiqamətdə əlbəttə ki, olduqca böyük potensial mövcuddur"-, deyə Baş nazir vurğulayıb. M.Baxtadze iki ölkə arasında maliyyə sahəsi ilə bağlı da əlavə məsləhətləşmələrin aparılacağını söyləyərək deyib: "Bu gün ölkələrimiz arasında azad ticarət rejimi xidmət



sahəsinə şamil olunmur. Bu sahədə də əlavə araşdırmalar aparılacaq və hesab edirəm ki, azad ticarətlə bağlı yeni rejim Gürcüstan və Azərbaycan arasında əməkdaşlığın artırılmasına töhfə verəcək".

# Məktəb bazarlığı neçəyə başa gəlir?



***Artıq yeni dərs ilinin başlanmasına 3 həftədən də az vaxt qalıb. Bu müddət ərzində məktəb bazarlığı valideynlərin ən başlıca missiyasına çevrilir. Həm uşaqlar, həm də valideynlər bu bazarlığı canfəşanlıq, həyəcan içində edirlər. Çünki, məktəb bazarlığının özü də məsuliyyət tələb edir. Bəs görəsən məktəbli formalarının alınmasından başlayıb, qələm, dəftərə qədər davam edən məsuliyyətli iş valideynlərə neçəyə başa gəlir?***

Biz də paytaxtın bir neçə yerində məktəbli ləvazimatları satılan dükanlarda olub qiymətlərlə maraqlandıq. Metronun "Sahil" və "28 May" stansiyasının yaxınlığındakı məktəb ləvazimatlarının satışı ilə məşğul olan bir neçə mağazaya baş çəkib satıcılarla həmsöhbət olduq.

### "Çantaların qiyməti firmaya görə dəyişir"

Satıcıların sözlərinə görə, məktəb çantalarının qiyməti firmasından asılı olaraq 15-50 manat arasında dəyişir. Valideynlər daha möhkəm konstruksiyalı, enli və yumşaq qayışlı və dayanıqlı oturacağı olan çantalara üstünlük verdikləri üçün onların istəklərinə uyğun hər cür çanta modelini tapmaq mümkündür.

Şagirdlər üçün lazım olan ləvazimatlardan dəftərlər 10 və 90 qəpik, qələmlər 10-50 qəpik, pozanlar 10 qəpik -1 manat arasında dəyişir. Məktəbli üçün lazım olan digər ləvazimatların qiyməti isə aşağıdakı kimidir:

1) Sadə karandaş: 10 - 50 qəpik
2) Xətkeş: 30 qəpik - 1 manat
3) Pozan: 20 qəpik - 1 manat
4) Flomaster: 1-3 manat
5) Qələm qabı: 2-8 manat
6) Qələm: 10-50 qəpik
7) Rəngli kağız: 80 qəpik - 3 manat
8) Qovluq: 20 qəpik - 1.5 manat
9) Yapışqan: 30 qəpik - 1.5 manat
10) Pərgar: 80 qəpik- 5 manat
11) Rəsm albomu: 40 qəpik-2 manat
12) Dəftər-kitab üzü: 20-50 qəpik
13) Qələm soyan: 40 qəpik-2 manat
14) Plastilin: 80 qəpik - 4 manat
15) Gündəlik 1.5 - 3 manat
16) Rəngli karandaş: 1.5 - 3 manat

### Dərsliklər məktəb tərəfindən pulsuz verilir

Satıcıların sözlərinə görə, məktəb ləvazimatlarının bazarlığı valideyn və şagirdlərin istəyinə görə dəyişə bilir. Belə ki, bəzi valideynlər məktəb bazarlığına kitab qoymaq üçün tutacaq, lövhə üçün marker, idman dərsi üçün ayrıca çanta, yemək qabı və digər ləvazimatları əlavə edirlər. Bu da təbii ki şəxsi istəklə bağlı məsələdir. Dərsliklər məktəblər tərəfindən pulsuz verildiyi üçün valideynlər məktəb bazarlığına kitab daxil etmirlər.

**ARAŞDIRMA**






### "Məktəbli formalarının qiyməti 40 manatdır"

Məktəb bazarlığında ən mühüm məsələlərdən biri isə məktəbli formasıdır. Valideynlərin bir qismi məktəbli formalarını Bakı Tikiş Evi, bir qismi isə başqa ölkələrdən Azərbaycana gətirilən məktəbli formalarını almağa üstünlük verirlər. Məktəbli formalarının qiymətinə gəldikdə Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin rəisi Etibar Əzimov bildirib ki, I-VI siniflər üçün nəzərdə tutulan 26-44 ölçülü məktəbli formalarının qiyməti 40 manat, yuxarı ölçülər isə 46 manat təşkil edir.

Onun sözlərinə görə, Bakı Tikiş Evində məktəbli köynəkləri də tikilir: "26-54 ölçülü bütün köynəklərin qiyməti 8 manatdır. Köynəklərin tikilməsi üçün istifadə edilən pambıq parçalar Türkiyədən gətirilir. Məktəblilər üçün nəzərdə tutulan jiletlər də ölçüsündən asılı olmayaraq 8 manata satılır ".

### "Gigiyenik sertifikatı olmayan məktəbli formaları uşaqlarda xəstəlik yarada bilər"

Məktəbli formalarının alışı ilə bağlı valideynlərə tövsiyələrini verən şöbə rəisi söyləyib ki, heç bir gigiyenik sertifikata malik olmayan məktəbli formaları uşaqlarda allergiya, müxtəlif səpkilər, əsəb pozğunluğu yaradır: "Bildiyiniz kimi satışda başqa ölkələrdən Bakıya gətirilən və sertifkatı olmayan saxta məktəbli formalarına rast gəlmək mümkündür. Lakin ən pisi həmin məktəbli formalarının üzərində Bakı Tikiş Evinə məxsus nişanların vurulmasıdır. Bu baxımdan valideynlər diqqətli olmalıdırlar. Kənarda satılan məktəbli formalarının qiyməti ilə BTE tərəfindən tikilən məktəbli formalarının qiymətində cəmi 5 manat fərq var".

Məktəbli ləvazimatlarının satış yarmarkaları fəaliyyətə başlayıb

Məlumat üçün nəzərinizə çatdıraq ki, Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) təşkil etdiyi məktəbli və ofis ləvazimatlarının topdan və pərakəndə satış yarmarkaları fəaliyyətə başlayıb. "Bakı Metropoliteni"nin Nəriman Nərimanov stansiyasının fərqli giriş-çıxışlarında 5 yarmarka çadırı var. Paytaxtın 10-a yaxın rayonunun ərazisində, eləcə də "28 May", "Memar Əcəmi","İnşaatçılar" və digər metro stansiyalarına yaxın ərazilərdə yarmarka çadırları fəaliyyət göstərir. Yarmarka çadırlarında məktəbli üçün lazım olan bütün ləvazimatlar satılır. Yarmarka sentyabrın 25-nə kimi davam edəcək. Qeyd edək ki, Azərbaycanda yeni tədris ili şənbə gününə təsadüf etdiyi üçün sentyabrın 15-də deyil, 17-də başlayacaq.

**Nailə Məhərrəmova**






## Dövlət qulluğuna qəbul üçün müsahibələrin keçirilmə qrafiki hazırlanıb

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

Dövlət qulluğuna qəbul üçün iyulun 30-da elan olunmuş müsabiqə üzrə müsahibə və ümumi müsahibələrin keçirilmə qrafiki tərtib edilib.

Dövlət İmtahan Mərkəzindən (DİM) AZƏRTAC-a bildiriblər ki, müsabiqə üzrə müsahibə elanı çərçivəsində yeddi dövlət orqanı üzrə ümumilikdə 215 vakant (A növü üzrə 15, B növü üzrə 200 vəzifə olmaqla) vəzifə müsahibəyə çıxarılıb və 132 nəfər namizəd kimi qeydiyyatdan keçib. Həmin namizədlərlə 279 müsahibənin keçirilməsi planlaşdırılır. A növünə aid vəzifələrin tutulması üçün planlaşdırılan müsahibələrin sentyabrın 17-də, B növünə aid vəzifələr üzrə müsahibələrin isə sentyabrın 12-dən oktyabrın 3-dək keçirilməsi nəzərdə tutulur.

Ümumi müsahibə elanı çərçivəsində beş dövlət orqanında yeddi vakant vəzifə çıxarılıb. Elan üzrə müsahibələrin sentyabrın 10-dan 17-dək keçirilməsi nəzərdə tutulur. Müsahibələr DİM-in Bakı şəhərindəki inzibati binalarında və Maliyyə Nazirliyinin inzibati binasında keçiriləcək. Nəzərə almaq lazımdır ki, müsahibələrin təşkili və keçirilməsi üçün DİM və dövlət orqanları tərəfindən kifayət qədər vəsait və resurslar sərf olunur. DİM namizədlərin diqqətinə çatdırır ki, onların müsahibədə iştirak etməmələri üzrlü hal kimi qəbul olunmur. Bu, namizədlərin məsuliyyətsizliyi kimi xarakterizə edilir və belə hallar DİM-in məlumat bazasında qeydiyyata alınır.

# Çinin nümayəndə heyəti ilə Milli Məclisdə görüş olub



Avqustun 31-də Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, işçi qrupunun rəhbəri, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkələrimiz arasındakı əlaqələrin çox qədim tarixə malik olduğunu deyib. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Çin ilə əlaqələr yeni müstəviyə qalxıb. İki ölkə arasında çox geniş iqtisadi, siyasi, elmi və dostluq əlaqələri qurulub. Həmçinin bildirilib ki, münasibətlərin yüksələn xətlə inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin böyük rolu var.

Çin Kommunist Partiyasının 2017-ci ilin oktyabrında keçirilmiş XIX qurultayı barədə danışan Siyavuş Novruzov deyib ki, həmin qurultayda qəbul olunmuş qərarlar təkcə Çin xalqı üçün deyil, həm də Orta Asiya ölkələri və Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı yaxşı münasibət xalqlarımızın dostluğunun möhkəmlənməsinə, iqtisadi əlaqələrin güclənməsinə, beynəlxalq arenada dövlətlərimizin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsinə və digər məsələlərdə birgə fəaliyyətinə yaxından kömək edir.

Heydər Əliyev Fondunun fəaliyyəti barədə danışan Siyavuş Novruzov Fondun ölkə daxilində və xaricində həyata keçirdiyi mühüm layihələri xüsusi qeyd edib. Bildirilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mədəniyyətlər, dinlər, dövlətlər və xalqlar arasında münasibətlərin daha da yaxınlaşmasına böyük töhfə verir. Parlamentlərarası əlaqələrdən söz açan Siyavuş Novruzov deyib ki, Çinlə işçi qrupu Milli Məclisdə ən böyük işçi qruplarından biridir. Parlamentin beş komitəsinin sədrləri də bu qrupun üzvləridir.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ölkəmizə Heydər Əliyev Fondunun dəvəti ilə gəldiyini qeyd edib. Azərbaycana səfəri çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini söyləyən qonaq iki ölkə arasındakı əlaqələrin inkişafının əhəmiyyətini xüsusi vurğulayıb.

"Ölkənizin odlar diyarı, xalqınızın qonaqpərvər olduğunu bilirdim və bunun bir daha şahidi oldum. Azərbaycanlıların Çin xalqına istiqanlılığını gördüm. Müasir Azərbaycanın inkişaf səviyyəsi, Bakının gözəlliyi bizi heyran etdi", - deyə Li Syaolin vurğulayıb. Diqqətə çatdırılıb ki, beş il bundan əvvəl Çin Xalq Respublikasının Sədri Si Cinpin "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasını elan edib. Biz bu təşəbbüsün Azərbaycan hökuməti və xalqı tərəfindən dəstəkləndiyini görürük. "Bir kəmər, bir yol" çərçivəsində iqtisadiyyat, qanunvericilik, humanitar sahələrdə əməkdaşlığı genişləndirmək mümkündür. Qonaq, həmçinin vurğulayıb ki, cari ilin noyabrında Şanxayda təşkil olunacaq birinci "Beynəlxalq İdxal Sərgisi"ndə Azərbaycan nümayəndə heyəti də iştirak edəcək. Sərgidə Azərbaycanın şərab və digər məhsulları nümayiş olunacaq.

# Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyi daha da möhkəmlənib



Ötən əsrin sonlarında cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu da dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin məqsədi dünya azərbaycanlılarını bir araya gətirmək və əlaqələri inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək, onların mədəni-siyasi hüquqlarını müdafiə etməkdən ibarət idi. Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Ümummilli Lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi. "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu. Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində Azərbaycanın qarşısında yeni vəzifələr qoymaqdadır. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Təxmini hesablamalara görə, müxtəlif ölkələrdə 50 milyondan çox azərbaycanlı yaşayır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona çatır. Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti İrandan miqrasiya etmiş soydaşlarımızdır. Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə isə Avropadır. Digər Qərb ölkələrində məskunlaşmış azərbaycanlıların sayı, müvafiq olaraq, hər bir ölkədə 2-10 min nəfər arasındadır. Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışdır.

Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi diaspor siyasəti uğurlarla nəticələnir. Belə ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Dünyanın müxtəlif ölkələrində keçirilmiş tədbirlərin sayına görə Azərbaycanın Avropa ölkələrinin önündə olduğunun şahidi oluruq. Avropa ölkələrində də Azərbaycanın qədim tarixi, ölkəmizin müasir inkişaf səviyyəsi və mövcud turizm potensialı, həmçinin, əldə etdiyi nailiyyətlər, qarşılaşdığı müxtəlif problemlər, o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında Avropa ictimaiyyətinin məlumatlandırılması işinə xüsusi diqqət yetirilir. Azərbaycan diaspor təşkilatları Avropanın müxtəlif ölkələrində erməni diasporu və lobbisinin təşkil etdiyi anti-təbliğat kampaniyalarının qarşısının alınması və ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşdırılması üçün müxtəlif formatlı tədbirlər və layihələr həyata keçirirlər. Avropa regionunda keçirilən məqsədyönlü tədbirlər, milli maraqlarımızın təmin olunması və mədəni irsimizin təbliği istiqamətində təşkil olunmuş təbliğat kampaniyaları dünya ictimaiyyətində ölkəmiz haqqında obyektiv rəyin formalaşdırılmasında mühüm rol oynayır.

Son illər Azərbaycan xalqı keyfiyyətcə yeni və daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoyub. Bu, milli ideologiyanın tamamilə formalaşdığı, hüquqi və demokratik dövlət quruculuğu prosesinin sürətləndiyi bir mərhələdir. Azərbaycan dövlətinin ilbəil artan iqtisadi və siyasi qüdrəti dünya azərbaycanlıları arasında birlik və həmrəyliyin daha da möhkəmlənməsinə, diaspor hərəkatının güclənməsinə əlverişli şərait yaradıb.

Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. İndiyədək əldə olunan təcrübə diaspor təşkilatlarımızın daha yetkin və nəzərəçarpacaq fəaliyyət göstərmələrinə imkan verir. Bu da, öz növbəsində, Diaspora İş üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr qoyur. Müasir dövrdə diaspor quruculuğu konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş surətdə istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda mühüm işlər görülür. Prezident Cənab İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir. Bu gün dünya ölkələrində olan Azərbaycan diaspora təşkilatlarının sayı 500-ə yaxındır.

Dünya azərbaycanlılarının əsas sosial-siyasi və milli-mənəvi vəzifələrindən biri yeganə müstəqil Azərbaycan dövlətini, hər hansı halda, müdafiə edib qorumaqdan və onun lideri ətrafında sıx birləşməkdən ibarətdir.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# Uğurlu siyasət Azərbaycanı güclü, müasir və sürətli inkişafa malik ölkəyə çevirib



*- Kamilə xanım, bəllidir ki, Azərbaycan dünya miqyasında öz iqtisadi inkişaf modeli və dinamik tərəqqisi ilə fərqlənən ölkələrdəndir. Ötən müddət ərzində Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirləri və əldə edilən nəticələri necə qiymətləndirirsiniz?*

- Ölkəmizin iqtisadi inkişaf göstəriciləri olduqca pozitivdir və müxtəlif beynəlxalq reytinq institutları, araşdırma mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edib. Həyata keçirilən iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar davam etdirilib. İqtisadiyyatın diversifikasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlər və əldə edilən nailiyyətlər yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib.

*Milli Məclisin deputatı Kamilə Əliyevanın yap.org.az- a müsahibəsi*

Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, nəzərdə tutulan bütün proqramlar, o cümlədən infrastruktur layihələri müvəffəqiyyətlə icra olunub.

Əminliklə demək olar ki, dövlətimizin başçısının rəhbərliyi ilə hazırda həyata keçirilən islahatlar bundan sonra da uğurla davam etdiriləcək və qarşıya qoyulan bütün məqsədlərə çatmaq mümkün olacaq. Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadi və maliyyə sisteminin sabitliyinin təmin olunması, biznes mühitinin daha da yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi və digər istiqamətlərdə əhəmiyyətli tədbirlər həyata keçirilir və bu da özünün müsbət nəticələrini göstərir. Şübhəsiz ki, xalqımız bütün bunları görür və yüksək dəyərləndirir. Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti birmənalı olaraq dəstəkləyir.

*- Azərbaycanın dayanıqlı və dinamik inkişafında ictimai-siyasi sabitlik faktorunun rolu nədən ibarətdir?*

- Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır. İnkişafın təməli kimi dəyərləndirilən sabitliyin ölkəmizdə yüksək səviyyədə qorunması uğurların bir-birini əvəzləməsinə geniş imkanlar açır. Bu gün Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı sürətlə artır. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsi beynəlxalq əhəmiyyətli layihələrin icrasına, eyni zamanda, maliyyə imkanlarının artmasına yol açır. Müstəqil siyasət aparmaq, iqtisadi, o cümlədən enerji sahəsində müstəqil təşəbbüsləri irəli sürmək maliyyə, iqtisadi və siyasi cəhətdən böyük imkanlar tələb edir. Bu gün Azərbaycanın iştirakı olmadan regionda enerji, həmçinin nəqliyyat və iqtisadiyyat sahəsində heç bir təşəbbüs irəli sürülə bilməz. Azərbaycan enerji resurslarından əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, milli maraqlarımızın təmin edilməsi və ölkəmizin qüdrətlənməsi naminə istifadə edir. Bütün bunlar Azərbaycanı güclü, qüdrətli, müasir və sürətli inkişafa malik ölkəyə çevirib.

*- Həyata keçirilən siyasətin uğurlu nəticələrindən biri də regionların sosial-iqtisadi inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edilməsidir. Bu sahədə görülən işlər və əldə edilən nəticələr barədə nə söyləmək olar?*

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən birini regionların sosial-iqtisadi inkişafı təşkil edir. Dövlətimizin başçısının fərmanları ilə təsdiqlənərək 2004-cü ildən indiyədək uğurla reallaşdırılan müvafiq regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında nəzərdə tutulan konkret vəzifələr müvəffəqiyyətlə yerinə yetirilib. Bunun əyani göstəricisi bölgələrin hərtərəfli və dinamik inkişafıdır.

Prezident İlham Əliyev 2003-cü ildə regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı beşillik dövlət proqramlarının qəbul edilməsi təşəbbüsünü irəli sürmüşdü və sonra bu təşəbbüsü reallaşdıraraq bölgələrin inkişafına xidmət edən müvafiq Dövlət proqramlarının icra olunmasını təmin etdi. Dövlət başçısının müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırıldı və müsbət göstəricilər əldə olundu. 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramı isə hazırda yerinə yetirilir və qazanılan uğurlar göz qabağındadır. İlk dövlət proqramının icrasına başlanmasından etibarən regionlarda 70 mindən çox müəssisə fəaliyyətə başlayıb, bölgələrdə ümumi məhsul buraxılışı əhəmiyyətli dərəcədə artıb. 2004-cü ildən etibarən Dövlət proqramlarının icrasına bütün mənbələr hesabına milyardlarla manat vəsait yönəldilib, dövlətimizin başçısı tərəfindən bölgələrdə yol infrastrukturunun yenilənməsinə, müxtəlif layihələrin reallaşdırılmasına və abadlıq-quruculuq işlərinin aparılmasına, eləcə də digər məsələlərə əlavə maliyyə vəsaitlərinin ayrılmasına dair çoxsaylı sərəncamlar imzalanıb.

Qeyd edim ki, mənim təmsil etdiyim Zaqatala və Balakən rayonları da ötən dövrdə xeyli dərəcədə sosial-iqtisadi baxımdan inkişaf edib. Ölkəmizin digər bölgələrində olduğu kimi bu rayonlarda da bütün sahələr üzrə infrastruktur yenilənir, yeni-yeni müəssisələr yaradılır, əhalinin məşğulluğunun təmin olunması istiqamətində davamlı işlər görülür. Hər iki rayonda son illər turizmin inkişafı xüsusilə diqqəti cəlb edir. Zaqatala və Balakən rayonlarının füsunkar təbiəti, mədəni-tarixi abidələr, eləcə də müasir turizm infrastrukturunun yaradılması bu bölgələrə yerli və əcnəbi turistlərin axınını gücləndirib.

*- Azərbaycanda təhsilin inkişafı diqqət mərkəzindədir və bu istiqamətdə mühüm layihələr, tədbirlər həyata keçirilir. Xüsusilə də, bölgələrdə təhsil infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən işlərlə bağlı nə deyə bilərsiniz?*

- Son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan da əhalisinin savadlılığı baxımından dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisə olunur, dövlətimizin başçısının təhsilə göstərdiyi diqqət nəticəsində bu sahə tamamilə yeni və keyfiyyətli mərhələyə qədəm qoyub. Son illərdə müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub, mövcud təhsil müəssisələri isə günün tələbləri səviyyəsində yenidən qurulub. Təqdirəlayiq haldır ki, bu proses bölgələri də əhatə edib.

Dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi ilə diqqət çəkir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət daşıyır. Ümumiyyətlə, 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bununla da ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb. Hazırda bu proses uğurla davam edir.

## Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hərbi hissədə birgə tədbir keçirib

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin 2018-ci il üçün birgə fəaliyyət planının icrası ilə əlaqədar hərbi hissələrdən birində görüş keçirilib.Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə polkovnik-leytenant Emin Səfərov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev şəxsi heyət qarşısında çıxış ediblər.

Milli mənəvi dəyərlərimizin qorunması istiqamətində ölkə rəhbərliyi tərəfindən görülən işlər, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında dinin rolu, "Dini radikalizm və İslam dünyası" mövzularında çıxış edən C.Əliyev sonda hərbi qulluqçuların çoxsaylı suallarını cavablandırıb.



## Azərbaycan qızılından külçə və sikkələr istehsal olunacaq

"AzerGold" QSC Azərbaycan istehsalı olan qızıldan və gümüşdən sikkə və külçələrin hazırlanması layihəsinə başlayıb. QSC-dən AZƏRTAC-a bildiriblər ki, külçə və sikkələrin hazırlanması "AzerGold"un inkişaf strategiyası əsasında icra olunur. Layihə ölkənin qızıl hasilatçısı kimi yerli və beynəlxalq bazarlarda tanıtımı, "Made in Azerbaijan" brendinin təşviqi ilə yanaşı, yerli sahibkarlıq subyektlərinə dəstəyin təmin edilməsi və daxili bazarın inkişaf etdirilməsi məqsədini daşıyır. 999.9 əyarlı külçə və sikkələrin istehsalı və "AzerGold" brendi ilə təqdim edilməsi yerli bazarda məhsul çeşidinin artırılması və əlverişli iqtisadi münasibətlərin inkişafına təkan verəcək. Nominal dəyəri olmayan qızıl və gümüş sikkələr, həmçinin qızıl külçələr üç çəkidə olacaq: 5, 10 və 20 qram.

İstehsalın ilkin mərhələsində qızıl və gümüş sikkələrin "Heydər Əliyev Mərkəzi", "Qobustan" və Qarabağ xalçasının naxışı "Çələbi" olmaqla üç müxtəlif dizaynda istehsal edilməsi planlaşdırılır. Bütün məhsulların üzərində Azərbaycan qızılı/gümüşü olduğu qeyd ediləcək.

# Almaniya və Azərbaycan: müasir geostrateji reallıqlar fonunda

***Qloballaşmanın perspektivləri haqqında beynəlxalq aləmdə rəsmən formalaşmış mövqe, əsasən, Davos İqtisadi Forumunda "Böyük iyirmilər"in son sammitlərində qəbul edilən proqram səciyyəli bəyanatlarda əks olunmuşdur. Bu sənədlərdən açıq-aydın görünür ki, XXI əsrdə formalaşan dünya iqtisadiyyatının ümumi qaydaları bu gün mövcud olan formada kapitalın milli dövlət sərhədlərindən sərbəst hərəkəti əsasında bazar fəaliyyətinin beynəlmiləlləşdirilməsini nəzərdə tutur. Bu, o deməkdir ki, yeni dünya iqtisadiyyatının təməlini iri maliyyə və qeyri-maliyyə korporasiyalarının başlıca rol oynadığı qlobal kapitalist bazarı təşkil edəcək. Təbii ki, bu şəraitdə qlobal və ya transmilli kapitalist sistemi milli iqtisadiyyatlar üzərində dominant rol oynayacaq. Beynəlxalq təşkilatların egidası altında hazırlanan maliyyə və ümumiqtisadi qloballaşma strategiyalarına əsasən aralarında institusional, iqtisadi və digər sosietal fərqlər mövcud olan milli və regional iqtisadi birliklər tədricən qlobal sistemə inteqrasiya olunacaq. Ancaq mütəxəssislər və ekspertlər qeyd edirlər ki, milli sistemlərin institusional divergensiyasının qorunub saxlandığı şəraitdə korporativ kapitalın tənzimlənməsinə və korporativ mülkiyyətə münasibətdə beynəlxalq qanunvericiliyin üstünlük qazanması müəyyən problemlər yaradacaq.***

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, milli dövlətlərin və multimilli idarəçilik orqanlarının ikinci dərəcəli rol aldığı şəraitdə dünya iqtisadiyyatının tam korporativləşməsi ən azı iki səbəb üzündən mümkün deyil. Birincisi, görkəmli iqtisadçıların və bu ssenarini hazırlayanların özlərinin də etiraf etdiyi kimi, həmin proses zamanı uzunmüddətli resessiya baş verə bilər. İkincisi, milli dövlətlər, təbii ki, ümumi iqtisadi resurslardan və yeni texnoloji nailiyyətlərdən fəal surətdə faydalanmağa çalışacaqlar. Böyük dövlətlər isə onların bu arzusunun qarşısına müxtəlif bəhanələrlə sədd çəkib, əngəl törədəcəklər. Digər tərəfdən də qlobal kapital axını siyasi tənzimləmə mexanizmlərinə çevik reaksiya verməyi, daha mükəmməl yanaşma sərgiləməyi tələb edir.

Qlobal iqtisadi idarəçiliyin mərkəzi institusional mexanizmi kimi çıxış edən bank və maliyyə fəaliyyətinin tənzimlənməsində, real sferanın bazar sektorunun islahatı sahəsində mövcud olan və gələcəkdə yaranması ehtimal edilən problem və çətinliklər dünya ölkələrini bu gün israrla ikitərəfli və bəzi məsələlərdə çoxtərəfli əməkdaşlığa sövq edir. Bu baxımdan Avropanın ən böyük iqtisadi gücü sayılan, ümumi daxili məhsul istehsalına görə dünyada dördüncü yeri tutan Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin Azərbaycana səfəri olduqca mühüm əhəmiyyət kəsb edir. 2017-ci ildə Almaniyada ÜDM-in həcmi 3,69 trilyon dollara bərabər olmuşdur. Əhalisi 82,5 milyon nəfər olan (Avropada əhalinin sayına görə 2-ci yeri tutur) Almaniyada adambaşına düşən ÜDM payı 46,9 min dollardır. Əməkqabiliyyətli əhalinin sayı 44,4 milyon nəfərdir. Ötən il Almaniya iqtisadiyyatında artım 2,2 faizdən çox olmuşdur.

Dövlət quruluşuna görə Almaniya federativ dövlətdir, 16 inzibati ərazi vahidindən (federal torpaqdan) ibarətdir. İdarəçilik forması parlamentli respublikadır. AFR-in Federal Kansleri 2005-ci il noyabrın 22-dən Xristian Demokrat İttifaqının sədri Angela Merkeldir. Ölkədə icraedici hakimiyyət federal kanslerin rəhbərlik etdiyi federal hökumətə məxsusdur. Siyasi sistem ikipilləlidir. Federal sistem ümumdövlət və beynəlxalq əhəmiyyətli qərarlar qəbul etmək səlahiyyətinə malikdir. Regional pillə federal inzibati ərazi vahidlərində icraedici, qanunverici və məhkəmə hakimiyyətini həyata keçirir. Seçkilərdə uğur qazanan partiyalar dövlətdən maliyyə dəstəyi alır.

2018-ci ilin dövlət büdcəsində gəlirlər 1,598 trilyon, xərclər isə 1,573 trilyon ABŞ dolları həcmində nəzərdə tutulmuşdur.

Ölkənin konstitusiyasına görə, Almaniya Silahlı Qüvvələri işğalçılıq müharibələrində iştirak edə bilməz. Konstitusiya Məhkəməsinin qərarına əsasən, son illərdə Bundesverə Bundestaqın (parlamentin) razılığı ilə BMT missiyası çərçivəsində sülhməramlı tədbirlərdə iştirak etməyə icazə verilib.

Avropa İttifaqının mərkəzi hissəsində yerləşən Almaniya təbii sərvətlər baxımından zəngin olmasa da bir sıra sənaye və texnoloji sahədə dünya lideridir. Dünyada əmtəə ixracı və idxalı üzrə 3-cü yeri tutur. Əhalinin həyat səviyyəsi çox yüksəkdir və bu göstərici üzrə ölkənin reytinqi dünyada 4-cü yerdədir. Federal hökumət sosial təminat, universal səhiyyə sistemi, ətraf mühitin qorunması, pulsuz ali təhsil sahələrinə böyük məbləğdə vəsait ayırır.

Almaniya Avropa İttifaqının yaradıcılarından biridir, 1955-ci ildən NATO-nun üzvüdür, "Böyük yeddiliyə" daxildir. Həyat səviyyəsinin yüksək olmasına görə immiqrasiya baxımından dünyada Amerika Birləşmiş Ştatlarından sonra ikinci cəlbedici ölkədir. Əhalisinin hər beş nəfərdən biri immiqrant keçmişə malikdir.

Mərkəzi Avropa regionunda daş kömür və qonur kömür ehtiyatı böyükdür. Təbii sərvətlərin azlığı səbəbindən ölkə iqtisadiyyatı daha çox sənaye sektoru və xidmət sahəsinə xüsusi diqqət yetirir. İqtisadiyyatın 60-70 faizini xidmət sahəsi, 30 faizə qədərini istehsal təşkil edir.

Dünya üzrə ümumi daxili məhsul istehsalının təqribən 4 faizi, Avropa İttifaqına daxil olan ölkələrin ÜDM istehsalının 30 faizi Almaniyanın payına düşür.

Almaniya yüksək məhsuldarlığa malik kənd təsərrüfatı ölkəsidir. Kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcminə, taxıl və heyvandarlıq məhsullarına görə Avropada yalnız Fransadan geri qalır. Süd istehsalına görə Avropa İttifaqında birinci yeri tutur.

Əsas sənaye sahələri arasında maşınqayırma, kimya, elektrotexnika məhsulları, avtomobil və gəmiqayırma böyük xüsusi çəkiyə malikdir. Almaniya sənayesinin istehsalı olan mallara tələbat bütün dünyada olduqca böyükdür. Ölkə yeni texnologiya və müxtəlif çeşidli keyfiyyətli əmtəə istehsalına hər zaman ciddi önəm verir, iri və əhəmiyyətli nəqliyyat qovşağı olmaqla yanaşı, 2200 müasir gəmidən ibarət ticarət donanmasına malikdir.



*Həsən HƏSƏNOV, "Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist*

Almaniya avtomobil istehsalı sahəsində bu gün Avropada birinci yerdədir. Ölkədə avtomobil istehsalının tarixi 1870-ci ildən başlamışdır. Şirkətlər ən yüksək sinifli avtomobil istehsalı prosesində dizayndan daha çox texniki keyfiyyətə və məhsuldarlığa xüsusi diqqət yetirirlər. Alman avtomobil markaları heyrətamiz dizayn, innovativ texnologiya və digər meyarlar baxımından dünyada ən yüksək nüfuza malikdir. BMW, Volkswagen, Mercedes-Benz, Audi və Porsche təkcə Almaniyada deyil, bütün dünyada lüks-sinif avtomobil istehsalçıları kimi misilsiz nüfuz qazanmışlar.

Təhlükəsizliklə bağlı müəyyən mübahisələr doğursa da, pilotsuz avtomobillər istehsalına dair qanunvericilik bazası hazırlanır. Avtomobilə əyləşib qəzet oxuyan və ya seriala tamaşa edən insanı getdiyi məkana aparan pilotsuz avtomobillərin istehsal olunacağı gün o qədər də uzaqda deyil. Ağır yük avtomobillərinin öncül istehsalçıları olan MAN, FAW Group, Daimler Truck, Volvo, İsuzu, İveco texniki keyfiyyət, təhlükəsizlik baxımından hətta bolid istehsalçılarını belə heyrətə salır.

1973-cü ildə Almaniya Demokratik Respublikası və Almaniya Federativ Respublikası BMT üzvlüyünə qəbul edildilər. İkiyə bölünmüş ölkə uzun illərdən sonra dünya düzənində yaranmış tarixi şəraitdən faydalanaraq, birləşməyə nail oldu. İki alman dövləti "Almaniyaya münasibət üzrə qəti tənzimləmə barədə müqavilə" əsasında birləşdi (müqaviləni imzalayan ölkələrlə bağlı - ADR, AFR, SSRİ, Böyük Britaniya, ABŞ və Fransa - bu sənəd "İki üstəgəl dörd müqaviləsi" də adlanır).

Beləliklə, 1990-cı il oktyabrın 3-də Almaniya Federativ Respublikasının Konstitusiyasına müvafiq olaraq, ADR və Qərbi Berlin AFR-in tərkibinə daxil oldu, Almaniya Demokratik Respublikasının Xalq Palatası (parlamenti - Volkskammer) və hökuməti ləğv olundu.

SSRİ-yə daxil olan respublikalardan 1988-ci ildən sonra Almaniyaya 2,2 milyon alman mənşəli əhali köçmüşdür.

Almaniyanın "Meissen" fabrikinin istehsal etdiyi farfor məmulatları dünyanın ən məşhur muzeylərini bəzəyir. Sənaye sahələrində robotlardan istifadənin hədsiz artması nəticəsində 12 milyon adamın öz iş yerini itirəcəyi gözlənilir. Bu səbəbdən hökumət iqtisadi artım və sərvətlərin bərabər bölüşdürülməsi arasında kompromis variantlar axtarır. Həmkarlar ittifaqları ilə işəgötürənlərin səmərəli əməkdaşlığı sosial rifahın dayanıqlılığına müsbət təsir göstərir. Ölkə iqtisadiyyatının mühüm xüsusiyyətlərindən biri "Reyn kapitalizmi" adlanır. "Reyn kapitalizmi" iqtisadi inkişaf prosesində banklara mühüm rol ayırır. Banklar ölkədə iri sənaye və xidmət şirkətlərinin əsas səhmdarlarıdır, buna görə də onlar biznes-qərarların qəbulunda fəal iştirak edirlər. Almaniyada sənayeləşmənin yüksək həddə çatması ölkənin dünya iqtisadiyyatında önəmli yer tutması ilə nəticələnib. Bəzi obyektiv səbəblər üzündən ölkə ərazisində iqtisadi inkişaf qeyri-bərabər paylanıb. Məsələn, şərq torpaqlarında inteqrasiya və modernləşmə böyük maliyyə resursları tələb etdiyi üçün müəyyən problemlər yaranır. Federal hökumət problemin aradan qaldırılması üçün şərq əyalətlərinə hər il 100 milyard dollardan çox vəsait ayırır. Ümumiyyətlə, Almaniyada xidmət və əmtəə ixracının artımı dünya iqtisadiyyatının artım sürətindən yüksəkdir. Ümumi maşınqayırma, cihaz və dəzgahlar istehsalı, gəmiqayırma, nəqliyyat sahəsində yeni texnologiyalar, təyyarə istehsalı, dəqiq mexanika, optika, əczaçılıq, parfümeriya-kosmetika, qara metallurgiya, informasiya-kommunikasiya texnikası, kimya və kosmik sənaye sahəsinin yüksək rəqabətqabiliyyətli məhsulları Almaniyanın dünya bazarlarında liderliyini qoruyub saxlamasına əlverişli şərait yaradır. Dünya bazarına çıxarılan maşınqayırma məhsullarının 20 faizindən çoxu Almaniyanın payına düşür. Əlvan və qara metallurgiya idxal xammalı hesabına inkişaf edir. Aviakosmik sənayenin inkişaf sürəti çox yüksəkdir.

Təsadüfi deyil ki, dünya iqtisadiyyatında böyük xüsusi çəkiyə malik olan Almaniya polyak mənşəli ABŞ siyasi xadimi, görkəmli strateq Zbiqnev Bjezinskinin daim diqqət mərkəzində idi. Bjezinski Almaniya və Fransanı Avropanın geosiyasi cəhətdən ən fəal dövlətləri hesab edirdi. Bu baxımdan böyük strateqin "Oyun planı" kitabında "açar dövlətlər"in geosiyasi rolunun təhlili olduqca maraqlıdır. Bjezinski yazırdı: "İndiki şəraitdə bütün dünya miqyasında cəmi beş geostrateji iştirakçı və beş geosiyasi mərkəz (geostrateji iştirakçıların ikisi, bəlkə də, qismən iştirakçı kimi tövsif edilir) seçilir və Avrasiyanın yeni siyasi xəritəsində identifikasiya oluna bilər.

Fransa, Almaniya, Rusiya, Çin və Hindistan böyük və fəal fiqurlardır, halbuki, Böyük Britaniya, Yaponiya və İndoneziya (hamının etirafına görə çox vacib olan ölkələr) bu kvalifikasiyaya düşmürlər. Ukrayna, Azərbaycan, Cənubi Koreya, Türkiyə və İran prinsipial geosiyasi mərkəz rolunu oynayırlar".

Görünür, bu həqiqətləri yaxşı dərk edən Almaniya Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir. Odur ki, Azərbaycanla intensiv dialoqa və diskussiyaya ciddi ehtiyac duyur. Federal Kansler Angela Merkel bu reallığı Azərbaycana səfəri zamanı açıq-aydın etiraf edərək dedi: "Bizim ikitərəfli münasibətlərimiz onunla xarakterizə olunur ki, bu regionda Azərbaycanın sıması-

# Almaniya və Azərbaycan: müasir geostrateji reallıqlar fonunda

da ən böyük, ən vacib ticarət tərəfdaşımız var. Azərbaycanda xarici ticarət planlarımız var, burada 150 alman müəssisəsi fəaliyyət göstərir. Azərbaycan da öz növbəsində, iqtisadiyyatın şaxələndirilməsinin həyata keçirilməsində maraqlıdır və Almaniya bu sahədə öz ciddi töhfəsini verə bilər. Bu gün birgə biznes forumu da buna xidmət edəcək və orada detallar barədə danışacağıq".

Federal Kansler haqlıdır, Azərbaycanın mühüm geostrateji ərazidə yerləşməsi, bölgədə müşahidə edilən tendensiyalar fonunda müasir, sivil müsəlman dövləti modeli ölkəmizin Qərb üçün cəlbediciliyini xüsusi olaraq artırır.

Hazırda bütün dünyada özünü göstərməkdə olan geosiyasi ziddiyyətlər, böyük dövlətlər arasındakı mürəkkəb iğtişaşlar, hərbi, ideoloji, informasiya və diplomatik savaşlar ciddi narahatlıq doğurur. Qərblə Rusiya arasında vüsət almış qarşılıqlı ittihamlar dalğası da yeni təhlükələrdən xəbər verir. Açıq etiraf edək ki, ABŞ-ın xarici siyasəti artıq liberal dünya nizamını nəticələrinin irəlicədən proqnozlaşdırılması çox çətin olan böhran dönəminə sürükləyir. Dünya nizamının mexanizmləri, onun liberalizm, universalizm və düzənin qorunması kimi üç əsas komponenti dartışma və savaş hədəfinə çevrilib. Başqa sözlə desək, dünya nizamının gələcəyi sual altına düşüb. Liberalizm siyasi müstəvidə geri çəkilir, demokratik ölkələrdə siyasi populizm güclənir, Avropada isə siyasi radikalizmə meyil artır. Dünya ticarətində proteksionizmin güclənməsi, böyük dövlətlərin yalnız öz maraqlarını güdməsi ölkələri üz-üzə qoymaqdadır. "Hər şeydən öncə Amerika" deviz dünya nizamını təhlükə qarşısında qoyub. Böyük dövlətlər belə mürəkkəb geosiyasi vəziyyətdə müxtəlif maraqları tarazlaşdırmaqda çətinlik çəkirlər. ABŞ-ın Rusiyaya tətbiq etdiyi çoxsaylı sanksiyalar, ABŞ - Şimali Koreya danışıqları, İranla imzalanmış nüvə sazişindən imtina, ABŞ - Çin ticarət müharibəsinin genişlənməsi, Yaxın Şərqdəki gərginlik vəziyyəti daha da kəskinləşdirir.

Hətta, iş o yerə çatıb ki, Rusiyaya qarşı sanksiyalarla kifayətlənməyən ABŞ Rusiyanın qaz nəhəngi - "Qazprom"un Baltik dənizi ilə Almaniyaya çəkiləcək "Şimal axını - 2" layihəsi iqtisadi cəhətdən yaxşı əsaslandırılmış və istehlakçılar üçün nə qədər cəlbedici olsa da, bu qaz kəmərinin çəkilişinə görə öz müttəfiqi olan Almaniyanı ciddi ittiham edir. Avropaya qaz ixracatçıları arasında Rusiyanın payı 43 faiz təşkil etsə də, bu layihənin reallaşdırılmasına törədilən əngəllər davam etməkdədir.

Qərb təhlükəsizlik sisteminin çöküşünə aparan proseslərin qarşısını almaq üçün artıq Avropa ölkələri ABŞ-dan asılı olmayan müdafiə-təhlükəsizlik sisteminin qurulması barədə düşünürlər. Federal Kanslerin tez-tez "biz artıq təhlükəsizliyimizi ABŞ-a etibar edə bilmərik" fikri də, görünür, elə bununla bağlıdır.

Geosiyasi proseslərin Qərb qanadının çöküşünü təhlil edən amillər Federal Kanslerin Cənubi Qafqaza səfərini labüdləşdirən səbəblər arasında önəmli yer tutur. Avropa üçün yeni enerji mənbəyi olan, müstəqil siyasət yeridən və etibarlı tərəfdaş kimi bütün dünyada böyük nüfuz qazanmış Azərbaycanla əməkdaşlığı siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək arzusu Angela Merkeli Azərbaycana ciddi tərəfdaş kimi baxmağa sövq edir.

Federal Kanslerin ölkəmizdə həyata keçirilən qlobal layihələr barədə ətraflı məlumata malik olması da bu fikri bir daha təsdiq edir: "Azərbaycan Avropa İttifaqının enerji şaxələndirilməsində də güclü bir amildir və Cənub Qaz Dəhlizinin açılması Avropanın enerji təminatında böyük rol oynayacaq. Biz Azərbaycanda Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasını yüksək qiymətləndiririk. Bu, Avropa ilə ticarət əlaqələrini genişləndirəcək, mübadilə aparılmasını yaxşılaşdıracaq".

Kanslerin regional təhlükəsizlik, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı açıqlaması da xüsusi əhəmiyyət kəsb edir: "Dağlıq Qarabağ məsələsi haqqında açıq danışdıq. Mən bir daha vurğuladım ki, Almaniya bu münaqişənin həllində maraqlıdır və biz buna Minsk qrupu çərçivəsində öz töhfəmizi verəcəyik... Bu regionda mövcud olan bütün münaqişələr sülh yolu ilə həll edilməlidir".

Azərbaycan Prezidenti cənab İlham Əliyev bu vaxta qədər Federal Kansler Angela Merkellə dəfələrlə görüşmüş və iki ölkənin rəhbərləri arasında səmimi dialoq və etimad mühiti yaranmışdır. Azərbaycanda müasir texnologiyaların tətbiqi, iqtisadi şaxələndirmə və qeyri-neft sektorunun inkişafında Almaniyadan olan 150-dən çox müəssisə fəal iştirak edir. Bu günə qədər həmin şirkətlər Azərbaycanda dəyəri 1 milyard ABŞ dollarından çox olan layihələr icra ediblər.

Statistikaya əsasən, 2017-ci ildə Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ümumi ticarətində Azərbaycanın payı təqribən 66 faizə bərabər olub. Başqa sözlə desək, Azərbaycan Cənubi Qafqaz regionunda Almaniyanın ən böyük və ən etibarlı tərəfdaşıdır.

Federal Kanslerin Cənubi Qafqaz turnesinə marağın böyük olması təbii qarşılanmalıdır. Berlin bu regionda "Böyük Qara dəniz" layihəsinə xüsusi əhəmiyyət verdiyini gizlətmir və bu kontekstdə Almaniyanın maraqlarına uyğun təhlükəsizlik sisteminin yaranması üçün səylərini əsirgəmir. Amma geosiyasi vəziyyətin təhlili göstərir ki, bu mürəkkəb geosiyasi regionda heç bir güc Rusiya, ABŞ, Fransa, Türkiyə, İran kimi böyük dövlətləri gözardı edə bilməz. Həm də açıq etiraf etmək lazımdır ki, bu regionun iqtisadi və geosiyasi lideri Azərbaycandır. Azərbaycanın razılığı olmadan burada hansısa beynəlxalq layihənin baş tutması qeyri-mümkündür. Onu da nəzərə almaq lazımdır ki, baş verən geosiyasi proseslərin fonunda ABŞ Prezidenti Donald Trampın "Cənub Qaz Dəhlizini" xüsusi qeydlə sanksiyalar çərçivəsindən kənara çıxarması ciddi tarixi hadisə kimi dünya düzəninin böyük aktorlarına əhəmiyyətli mesajıdır. Bu mesajına siyasi, iqtisadi və təhlükəsizlik aspektləri çoxlarını düşünməyə və geri çəkilməyə məcbur edəcək. Həm də nəzərə almaq lazımdır ki, Azərbaycan müstəqil xarici siyasət yeridir və heç bir dövlətin, beynəlxalq qurumların diktəsi ilə hərəkət etmir.

Rəsmi Bakının öz fəaliyyətində ancaq milli maraqlara və bərabərhüquqlu tərəfdaşlığa üstünlük verməsi Federal Kanslerin Azərbaycana səfəri zamanı bir daha xüsusi vurğulandı. Ölkənin ən ağır problemi olan Dağlıq Qarabağ məsələsindən bəhs edərkən Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini, respublikanın qəti və prinsipial mövqeyini cəsarətlə bəyan etdi: "Bu gün biz gündəlikdə duran məsələləri çox açıq, konstruktiv şəkildə müzakirə etdik. Əminəm ki, aparılan danışıqlar, keçirilmiş fikir mübadiləsi gələcək əməkdaşlıq üçün əlverişli zəmin yaradır.

Mən xanım Kanslerə regional təhlükəsizlik məsələləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verdim. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və onları icra etmir. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır".

Dağlıq Qarabağ münaqişəsinin həllində Almaniyanın təşəbbüsü öz üzərinə götürə biləcəyini bəyan etməsi düşündürücü məqam olsa da, real mənzərənin mürəkkəbliyini unutmaq olmaz. Dünyanın böyük dövlətləri anlamalıdırlar ki, Dağlıq Qarabağ məsələsinin həllində ədalətli, obyektiv, beynəlxalq hüquqa uyğun mövqe tutmadan Cənubi Qafqazda nüfuz sahibinə çevrilmək qeyri-mümkündür. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və Prezident İlham Əliyevin bəyan etdiyi kimi ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır. Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcək!

Dünya siyasətinin gündəminin obyektiv təhlili göstərir ki, regionun geosiyasi mənzərəsində Azərbaycan faktorunun aktuallığı getdikcə artır. Bu, birmənalı olaraq Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətlə bağlıdır. Prezident İlham Əliyev həyata keçirdiyi müstəqil və tarazlaşdırılmış xarici siyasət kursu ilə sübut etdi ki, Cənubi Qafqazın lider dövləti etibarlı tərəfdaş olan qüdrətli Azərbaycan dövlətidir.

## Nazir Ramin Quluzadə Naftalanda vətəndaşlarla görüşüb



Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə avqustun 31-də Naftalan şəhərində vətəndaşlarla görüşüb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdə Naftalanla yanaşı, Gəncə şəhər, Göygöl, Samux, Goranboy, Daşkəsən, Kəlbəcər və Xocalı rayon sakinləri də iştirak edib. Qəbuldan əvvəl nazir Ramin Quluzadə və Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

Sonra vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerində müsbət həllini tapıb. Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib. Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb. Qeyd edək ki, görüş mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilib.

## Azərbaycanda heyvandarlığın inkişafına dair Dövlət Proqramı hazırlanır

Kənd təsərrüfatı naziri İnam Kərimov Azərbaycan Süd İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvləri ilə görüşüb. Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkədə heyvandarlığın inkişafı məsələləri ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb. Nazir fermerlərə yaxın olmaq prinsipinə əsaslanaraq kənd təsərrüfatı sahəsində ixtisaslaşmış assosiasiyaların üzvləri ilə mütəmadi görüşlər keçirdiyini bildirib. Qeyd edib ki, bu cür görüşlərin keçirilməsində məqsəd aqrar sektorun davamlı inkişafını təmin etməkdir.



Görüşdə assosiasiya üzvlərinə nazirlikdə yeni yaradılmış fermerlər, kooperativlər və assosiasiyalarla iş şöbəsinin və Dövlət Aqrar Ticarət Şirkətinin fəaliyyəti haqqında məlumat verilib. Bildirilib ki, nazirlik tərəfindən Azərbaycanda heyvandarlığın inkişafına dair Dövlət Proqramı hazırlanır. Müzakirələrdə iştirak edən "MPRO", "Biləsuvar aqro", "Amal" şirkətlərinin, "SANİ", "Bozdağ", "Real İnkişaf", Beyləqan və Tərtər fermer təsərrüfatlarının "Gilan Diary Farms", "Nüsr Ət aqro" "Yalama Aqropark" məhdud məsuliyyətli cəmiyyətlərinin, "Bərdə RVR LTD"nin "Çiçək" süd fermer təsərrüfatının, Türk Qida Sənaye Birliyinin təmsilçiləri dövlət proqramı layihəsinin hazırlanması təşəbbüsünü dəstəkləyiblər. Səsləndirilən təkliflərin Assosiasiya üzvləri ilə növbəti görüşlərdə bir daha müzakirə olunması, uyğun təkliflərin heyvandarlığın inkişafına dair Dövlət Proqramı layihəsinə daxil edilməsi qərara alınıb.

# "Azərbaycanla sülh yaratmadan Ermənistanda heç bir hakimiyyət uzunömürlü ola bilməz"

***- Azər müəllim, uzun müddətdir ki, Qarabağın erməni icması ilə azərbaycanlı icması arasında görüş keçirilmir. Sizcə, nəhayət, regiondakı ab-hava, sülhə doğru təşəbbüslər Qarabağın azərbaycanlı və erməni icmalarının görüşmələrinə təkan ola biləcəkmi?***

- Düşünmürəm ki, Qarabağın erməni icması ilə azərbaycanlı icması arasında görüşlər keçirilməklə sülh əldə olunsun. İcmalar arasındakı görüşlər, sadəcə, insanların baxışlarındakı düşmənçilik meyllərinə müəyyən qədər təsir göstərə bilər. Amma sülhün imzalanması, konkret olaraq, Rusiyanın istəyi ilə Ermənistan rəhbərliyindən asılıdır. Ermənistan rəhbərliyi erməni ictimaiyyətini sülhə hazırlamalıdır. Təbii ki, Qarabağ məsələsi dəfələrlə Ermənistanda dövlət çevrilişləri üçün bir vasitə olmuşdur. Təkrarən bunun baş verməməsi üçün erməni dövləti Azərbaycan torpaqlarını işğaldan azad etməklə əldə edəcəkləri faydalardan ardıcıl danışmalı, təbliğ etməli və erməni ictimaiyyətini buna hazırlamalıdır. Azərbaycan isə, ölkəmizin ərazi bütövlüyünü təmin edilmək şərtilə, hər zaman sülh danışıqlarına hazırdır.



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Koçaryanın siyasətə qayıtdığını bəyan etməsi Paşinyanın sıradan çıxarılması ilə nəticələnə bilərmi?***

- Ermənistanda hər bir hadisə baş verə bilər. Koçaryanın siyasətə qayıtması isə heç də onun hakimiyyətə qayıdacağı demək deyil. Ola bilsin ki, Koçaryanın adamı yenidən hakimiyyəti ələ alsın. Amma bu, tezliklə baş verməyəcəkdir. Hələ ki, Paşinyan "küçə adamı" olaraq küçə diliylə insanları dalınca apara bilir. Bu, o demək deyil ki, Paşinyan uzun müddət hakimiyyəti əldə saxlaya biləcək. Çünki hakimiyyəti əldə saxlamaq üçün gələcəyə hesablanmış siyasi kursu olmalıdır. O kursu həyata keçirmək üçün iqtisadi baza yaradılmalıdır. Təbii ki, Paşinyanın nə siyasi kursu, nə də iqtisadi bazası var. Belə olmadığı halda, insanları dalınca apardığı zaman verilmiş vədlər icra olunmur. Bu da yenidən Paşinyandan narazı kütləni çoxaldır. Bunun baş verməməsi üçün, ilk növbədə, təcili olaraq Azərbaycanla sülh sazişi bağlamağa hazır olduğunu bəyan etməli, ölkənin blokada vəziyyətindən çıxardılmasına çalışmalıdır.

***- Sarkisyan açıq şəkildə Koçaryanı müdafiə edir. Sizcə, bu, planlaşdırılan parlament seçkilərinə qədər Ermənistanda növbəti dövlət çevrilişinin baş verməsinə gətirib çıxara bilərmi?***

- Sarkisyanla Koçaryanın əməkdaşlığı parlament seçkisinə qədər növbəti çevrilişə aparacağını düşünmürəm. Çünki erməni ictimaiyyətində Sarkisyana və Koçaryana qarşı böyük nifrət var. Ona görə də, Koçaryanın dövlət çevrilişinə imkanlarının o qədər böyük olduğunu düşünmürəm. Sarkisyan-Koçaryan cütlüyü, sadəcə, parlament seçkisinə qədər Ermənistanın siyasi atmosferini dəyişə bilər ki, bu da yeni bir liderin yaranmasına şərait yaradar. Ermənistanda yeni bir siyasi lider ortaya çıxarsa, Paşinyan hakimiyyətinə təhlükə ola bilər. Paşinyan çalışmalıdır ki, seçkilərdə parlamentdə çoxluq qazansın və seçkidən sonra ilk addımları Azərbaycanla sülh danışıqları aparmaqdan başlamalıdır. Çünki Azərbaycanla sülh yaratmadan Ermənistanda heç bir hakimiyyət uzunömürlü ola bilməz.

**GÜLYANƏ**

# Dövlət qayğısı təhsilin inkişafına geniş perspektivlər açır

***Yeni dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, intellektual potensialın gücləndirilməsi Avropa təhsil məkanına inteqrasiya ölkəmizdə reallaşdırılan dövlətin təhsil siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib. Təhsilin bütün istiqamətlər üzrə tarazlı inkişafı ciddi investisiya tələb edən məsələ olduğundan, dövlətin son illərdəki maliyyə imkanları bu sahədə qlobal layihələrə başlamağa münbit şərait yaratmışdır.***



Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na və "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır.

Təhsil sahəsində ən diqqətçəkən məqamlar, həm də məktəb binalarının tikintisinin geniş vüsət alması ilə bağlıdır. Məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının inşası regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında, ölkə başçısının fərman və sərəncamlarında əksini tapmışdır. Son illərdə müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub, mövcud təhsil müəssisələri isə günün tələbləri səviyyəsində yenidən qurulub. Sevindirici haldır ki, bu proses bölgələri də əhatə edib. Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə əsaslı təmir-bərpa işləri aparılır. 2018-ci ildə respublika ərazisində 137 modul tipli təhsil müəssisəsi istifadəyə veriləcək. Qeyd edək ki, ümumilikdə, Bakı şəhəri və ölkənin 54 rayonu olmaqla, 193 obyektdə işlər aparılır.

Artıq ölkəmizdə yeni dərs ilinin başlanmasına sayılı günlər qalıb. Yeni tədris ilində yeni arzular və yeni istəklərlə tədris müəssisələrinə yol açan məktəblilər bu il də dövlət tərəfindən böyük diqqət və qayğı ilə əhatə olunduqlarının şahidinə çevriləcəklər. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın iştirakı ilə İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının da açılışı təhsil sahəsinə dövlət tərəfindən göstərilən diqqətin nümunəsidir. 400 şagird yerlik Lahıc qəsəbə tam orta məktəb binasında yaradılan şərait göstərir ki, dövlətimizin başçısının təhsilə göstərdiyi diqqət nəticəsində, bu sahə tamamilə yeni və keyfiyyətli mərhələyə qədəm qoyub. Qeyd edək ki, Lahıc qəsəbə tam orta məktəbi üçün bina 1928-ci ildə inşa edilmişdi. Məktəb 130 şagird üçün nəzərdə tutulmasına baxmayaraq, burada 232 şagird təhsil alırdı. Binanın mövcud vəziyyəti müasir dövrün tələblərinə uyğun deyildi, eyni zamanda, qəsəbə əhalisinin sayının artması və ətraf kəndlərdə tam orta məktəbin olmaması bu təhsil müəssisəsində şagird sıxlığı yaratmışdı. Dövlətimizin başçısının ötən il imzaladığı Sərəncama əsasən, üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik Şamaxı rayonu Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışı da təhsilə ayrılan diqqətin daha bir nümunəsidir. Meysəri kənd tam orta məktəbi üçün yeni binanın inşası son illərdə təhsil sahəsində qazanılan uğurların təməlində Azərbaycanın yeni təhsil modelinin dayandığını bir daha təsdiqləyir. Bütün bunlar, bir daha göstərir ki, artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və həyata keçirilir. Azərbaycanda yüzlərlə məktəb binasının tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıb. Ən əsası isə, milli dəyərlər üzərində qurulan təhsil modeli gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını qarşıya əsas məqsəd qoyub və buna nail olub.

Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan da, əhalisinin savadlılığı baxımından, dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisə olunur.

Dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə diqqət çəkir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət daşıyır. 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bununla da, ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı, bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.

**ZÜMRÜD BAYRAMOVA**

# Baş prokuror Saatlı rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 31-də baş prokuror Zakir Qaralov Saatlı Rayon Prokurorluğunun inzibati binasında Şirvan şəhər, Saatlı, Sabirabad, Salyan və Hacıqabul rayonlarından olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla anıblar.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 17 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb. Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

# Ətraf mühitin qorunması diqqətdə saxlanılır

***Azərbaycan müstəqilliyinin bərpasından sonra nail olduğu uğurlar ölkəmizin dünyada söz sahibinə çevrilməsinə və nüfuzunun yüksəlməsinə səbəb olub. Ölkəmizin ağır günlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ictimai-siyasi sabitliyi təmin edərək, zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirdi.***

Bu gün Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində, tarixin çətin və taleyüklü sınaqlarından çıxaraq, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan dövləti günü-gündən daha da güclənərək, dinamik inkişafı ilə seçilən dövlətlər sırasındadır. Azərbaycanda baş verən sıçrayışlardan, onun simasının gündən-günə dəyişməsindən, danışarkən, Heydər Əliyev Fondunun da fəaliyyətini vurğulamaq vacib məqamlardandır. Yarandığı zamandan Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb, həyata keçirir.

Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub-saxlanmasına dünya ictimaiyyətinin töhfələr verdiyi, beynəlxalq ictimaiyyətin, siyasi və elmi dairələrin ətraf mühitlə bağlı problemlərin həllində maraqlı olduğu bir zamanda, fond da ekoloji problemlərə xüsusi önəm verir. Bu gün dünyada davamlı inkişaf ətraf mühitin qorunması məsələsini aktuallaşdırıb. Bunun təmin edilməsi üçün çoxlu tədbirlərin keçirilməsi olduqca önəmli məsələlərdəndir. Hər bir ölkənin təbii ehtiyatlarının düzgün idarə olunması çox önəmlidir. Leyla xanımın fikrincə, bu iqlim dəyişikliyi nöqteyi-nəzərindən də çox önəmli bir məsələdir. “Bu dəyişiklikləri düzgün idarə etməyi bacarmalıyıq” - deyən Leyla xanım dəyişikliklər prosesində gənc nəslin fəallığının önəmli olduğunu vurğulayır. Bütün bu məsələlər gənclərə aşılanır. Bu sahədə müxtəlif tədbirlər keçirilir, sərgilər təşkil olunur. Bütün bunlar vasitəsilə Azərbaycanda və dünyada ətraf mühitlə bağlı problemlər barədə gənclərə məlumat verilir.

On bir iqlim qurşağından doqquzunun Azərbaycanda olması ölkəmizin təbiətini çox zəngin edir. Bu zənginliyi və təbiəti qorumaq vacib amillərdəndir. Ətraf mühitin qorunması, suyun, təbiətin çirklənməməsi, qorunub-saxlanılması zəminində təbiətin zənginliyini qorumaq mümkündür. Təbii ki, təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır. Bu baxımdan, insanlara belə fikirləri aşılamaq lazımdır. Ətraf mühitə zərər verməyən texnologiyadan istifadə olunmalı, enerji resurslarına qənaət edilməlidir. Bu və ya digər məsələlərin həlli planetimizin gələcəyini təmin edəcəkdir. Bu baxımdan, bütün imkanlardan istifadə edilməli, hər bir şəxs hərəkətlərinə görə məsuliyyət daşımalıdır və ətraf mühitə sevgi kiçik yaşlarından aşılanmalıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq Kampaniyasının təsisçisi Leyla xanım Əliyevanın vurğuladığı kimi: “Ekologiya ilə bağlı məsələlər



bizim üçün çox önəmlidir... Zənnimcə, bununla uşaqlar artıq erkən yaşlarından yaşadıqları ölkələrdə təbiətin qorunması haqqında məlumatlar almış olacaqlar. Mənə elə gəlir ki, ekoloji çağırışlara cavab verilməsi üçün bu, çox böyük əhəmiyyət daşıyacaqdır”.

Leyla xanım Əliyevanın ardıcıl olaraq ekoloji problemlərin aradan qaldırılması ilə bağlı həyata keçirdiyi layihələr öz töhfəsini verir. Belə ki, İDEA-nın reallaşdırdığı layihələr sırasında “Bir planet - bir gələcək”, “Böyük Qafqaz beşliyi” və s. əhəmiyyətlidir. “Böyük Qafqaz beşliyi” əsasında yox olmaq təhlükəsi ilə üzləşən ayı, qartal, canavar, ceyran və Qafqaz bəbiri ilə bağlı İDEA Azərbaycan və dünya ictimaiyyətini maksimum məlumatlandıraraq, yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub-saxlanması üçün konkret layihələr həyata keçirib. İDEA-nın “Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!” devizi ilə həyata keçirilən ağacəkmə aksiyası çərçivəsində Eldar şamı, kiparis, Şərq çinarı və digər ağaclar əkilib. İDEA “Eko Ev” adlı layihəsi çərçivəsində isə enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan tədbirlər reallaşıb. Layihələrinin çərçivəsini və miqyasını genişləndirən İDEA “ASAN Xidmət” və “Təmiz Şəhər” ASC-nin birgə təşkilatçılığı ilə “Hər kağızı bir yarpağa dəyişək” müştərək layihəsini də qeyd etmək yerinə düşər. Layihə çərçivəsində Bakı şəhərində fəaliyyət göstərən “ASAN Xidmət” mərkəzlərinin hər birində istifadə olunmuş kağız və kağız məhsullarının qəbulu aksiyası keçirilib.

Dünyada ətraf mühitin qorunması, davamlı inkişafın təmin olunması üçün Minilliyin İnkişaf Məqsədləri qəbul edilib. Əsas məqsəd insanlara bu sahədə qərar qəbul etmək imkanları vermək, onları bu prosesə cəlb etməkdir. “Yaşıl iqtisadiyyat”ın təmin olunması ilə bağlı bütün ölkələrin üzərinə öhdəliklər düşür. “Ətraf mühitin qorunması və davamlı inkişafın təmin olunması üçün bütün dünyada əməkdaşlığı təmin etmək önəmlidir”, - deyən Leyla xanım Əliyeva dünyanın müxtəlif ölkələrində yaşayan gəncləri ekoloji məsələlərin həlli istiqamətində fəal olmağa və bir-birləri ilə əlaqələr qurmağa dəvət edib. Paytaxımızda keçirilən Krans Montana Forumu, bu baxımdan əhəmiyyəti ilə yadda qalıb. Forumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva müasir həyatımız üçün vacib olan ətraf mühitin qorunması sahəsində gələcəyin liderlərinin davamlı inkişafı təminində rollarını xüsusi olaraq qeyd etmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxtımızda keçirilən V Beynəlxalq “Tullantıdan sənətə” sərgisinin də ətraf mühitin tullantılardan zərərsizləşdirilməsində əhəmiyyətini vurğulamalıyıq.

Bu gün Bakı şəhərində tullantılardan təkrar istehsal üçün xammal kimi istifadə olunur. Həmçinin, tullantıların yandırılması nəticəsində elektrik enerjisi əldə edilir. “Tullantıdan sənətə” sərgisi isə tullantıların lazımsız əşyalar toplusu olmadığını, hətta onlardan sənət əsərləri yaratmağın mümkünlüyünü əyani formada nümayiş etdirmişdi. Göründüyü kimi, Leyla Əliyeva ətraf mühitin mühafizəsi, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasının vacibliyini daim diqqətdə saxlayır və bu məqsədlə, ardıcıl olaraq, layihələr reallaşdırılır.

***Zümrüd BAYRAMOVA***

## Ekologiya və təbii sərvətlər naziri Masallı rayonunda vətəndaşların müraciətlərini dinləyib



Prezident İlham Əliyevin dövlət qurumlarına insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin edilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Avqustun 31-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Masallı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Masallı, Yardımlı, Lənkəran, Astara və Lerik rayonlarının sakinlərini qəbul edib. Tədbir mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən təşkil olunub. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl nazir və Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Qəbul zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub, digərləri üzrə isə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə ölkə başçısına öz minnətdarlıqlarını ifadə ediblər.

## Çinin nüfuzlu “China Daily” qəzeti AZƏRTAC-ın informasiyalarına geniş yer ayırır

Çinin ingilis dilində nəşr olunan nüfuzlu gündəlik “China Daily” qəzeti AZƏRTAC ilə əməkdaşlığı genişləndirir. Qəzetin səhifələrində və elektron resurslarında AZƏRTAC-ın ölkəmizin həyatının müxtəlif sahələrini əhatə edən xəbərlərinə, fotoinformasiyalarına geniş yer verilir. Bu silsilədən AZƏRTAC-ın növbəti informasiyası və fotosu qəzetin saytında avqustun 31-də yerləşdirilib. Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündən bəhs olunur.



CHINADAILY.COM.CN
HOME CHINA WORLD BUSINESS LIFESTYLE CULTURE TRAVEL WATCHTHIS SPORTS OPINION REGIONAL FORUM NEWSPAPER MOBILE
World Asia-Pacific Americas Europe Middle East Africa China-US China-Europe China-Japan China-Africa
Home / World / Asia-Pacific

Azerbaijan's President Ilham Aliyev receives Chinese delegation

AZERTAC | Updated: 2018-08-31 17:18

President of the Republic of Azerbaijan Ilham Aliyev receives a delegation led by president of the Chinese People's Association for Friendship with Foreign Countries Li Xiaolin, Aug 30, 2018. [Photo/AZERTAC]

President of the Republic of Azerbaijan Ilham Aliyev has received a delegation led by president of the Chinese People's Association for Friendship with Foreign Countries Li Xiaolin.

Most Viewed in 24 Hours
Summit to bolster ties with Africa
China denies hacking Clinton server
China not to accept another Plaza Accord, says ambassador
EU deeply disagrees with US on trade despite detente
Three people injured in stabbing incident at Amsterdam's central station, suspect shot by police

Special Coverage
FOCAC Beijing Summit
PRESIDENT XI'S VISIT
President Xi visits Mideast and Africa, attends BRICS Summit

You May Like
Promoted Links
This App Teaches Complete Beginners
'Flower sea' in Fujian attracts

İnformasiyada Azərbaycan Prezidenti İlham Əliyevin Çinin Azərbaycan üçün etibarlı tərəfdaş və dost ölkə olduğu, Çinə səfəri, ikitərəfli münasibətlərin bütün istiqamətlərdə inkişafı barədə fikirləri yer alır. Materialda, həmçinin qeyd olunur ki, görüşdə Li Syaolin Bakı haqqında təəssüratlarını bölüşüb, rəhbərlik etdiyi qurumun Heydər Əliyev Fondu ilə birgə fəaliyyəti, maraqlı layihələrin həyata keçirildiyi barədə məlumat verib. Xatırladaq ki, AZƏRTAC ilə “China Daily” qəzeti arasında əməkdaşlığa dair razılıq Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün bu ilin iyununda Pekinə səfəri çərçivəsində “China Daily” qəzetinin rəhbərliyi ilə görüşündə əldə edilib.

# Müsavatla AXCP-nin çözülən çarəsiz "xəstəliyi"

## *Yenə də hər iki tərəfin bir-birilərini ittiham və təhqir etmələri davam etməkdədir*

***AXCP-Müsavat arasında uzun illərdir davam edən davasının nə zamansa başa çatacağı kimsəyə inandırıcı görünmür. Çünki hər iki idialı olan partiya sədrlərinin reallaşdırıla bilmədikləri iddiaları buna imkan vermir. Bu gün "Milli Şura" daxilində iki partiya arasında yaşanan ixtilaflar da ilk deyil. Bu, bir daha sübut edir ki, onlarda ümumi maraqlar deyil, şəxsi maraqlar hər şeydən üstün olduğuna görə, həmin partiyalar arasında davamlı gərginlik yaşanır.***

Beləliklə, aydın olur ki, AXCP və Müsavat arasında qarşıdurmalar aradan qalxmayacaq. Bundan sonra da davam edəcək və bu baxımdan da, yuxarıda dediyimiz kimi, bu qaşıdurmaların nə vaxtsa başa çatacağı inandırıcı deyil. Çünki ənənəvi qarşıdurmaların bünövrəsi hələ "Yurd" qrupunun daxilindən qaynaqlanaraq, hazırkı həddə qədər inkişaf edib. AXC-nin tərkibində yaradılan "Yurd"-a rəhbərlik edən Əli Kərimlinin əsas məqsədi də Əbülfəz Elçibəyin siyasi arenadan kənarlaşdırılması və cəbhənin sükanı arxasına keçməsi ilə bağlı olub. Və 2013-cü ildə Müsavat partiyası "Milli Şura"dan çıxandan sonra qarşıdurma daha da dərinləşib, söyüş və təhqirlər dalğası iki təşkilatın aşkar sifətlərini ortaya qoyubdu. Doğrudur, sonradan Müsavat partiyası sosial şəbəkələrdə və mediada qarşı tərəfə cavab verməmə moratoriumu elan etdi, AXCP isə bundan maksimum yararlanaraq, daha kəskin söyüş kampaniyasına başladı. Hətta Ə.Kərimlinin feysbukdakı söyüş qrupu, bu məsələdə öncəkindən də fəal dayandı. Nəticədə, Müsavat tərəfi də moratoriumu çox saxlaya bilmədi və yenidən ara qarışdı.

### Müsavat və AXCP-nin "Şap-şup" oyunu

ADP sədrinin müavini Taliyət Əliyev bildirdi ki, bu iki partiya arasındakı münasibətlərin kökü hakimiyyətdə olduqları dönəmdən başlayır və bu günə kimi də davam edir. "Hesab edirəm ki, bu münasibətlərin motivində qrup maraqları dayanır. Bu, təkcə iki partiya arasındakı münasibətlərə deyil, ümumilikdə, müxalifətdaxili münasibətlərə də mənfi təsir göstərir. Nəticə etibarilə cəmiyyətin müxalifət partiyalarının ətrafında birləşməsinin qarşısını alır. Hesab edirəm ki, bu məsələ təkcə AXCP-Müsavat məsələsi deyil, ümumilikdə, siyasi institutlarda siyasi mədəniyyətin hələ də formalaşmamasından irəli gəlir. Əks-fikirə dözümsüzlük, məqam olan kimi öz müttəfiqini qaralamaq, siyasi etikaya və əxlaq normalarına riayət etmədən onu təhqir etmək və s. hallar günümüzün reallığıdır. Bütün bu neqativlərin aradan qaldırılması üçün, görünür, hələ zamana ehtiyac var".

### Sərdar Cəlaloğlu: "AXCP və Müsavat partiyaları gücsüz partiyalardır"

Sözügedən məsələ ilə bağlı Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu AXCP-Müsavat arasında baş verən qarşıdurmanın mənasız olduğunu bildirərək, vurğulayıb ki, hər iki partiya özünü güclü saysa da, keçirdikləri aksiya və mitinqlərdə onların nə qədər zəif olduğunu sübut edir. Partiya sədri hesab edir ki, uğursuzluqlarını qabaqcadan bildikləri üçün ölkədə keçiriləcək hər hansı seçkini ya boykot etmək çağırışı edirlər, ya da aksiya və mitinqlər keçirməklə özlərini nümayiş etdirirlər: "Bu, yanlış addımdır: seçki demokratik prossesdir, konstitusion normadır. Heç kim bu normaya qarşı çıxış edə bilməz. Konstitusiyanın 70-ci maddəsində qeyd olunur ki, hansısa ad altında vətəndaşların hüquqlarının məhdudlaşdırılması yolverilməzdir. Ona görə də, siyasi baxımdan, vətəndaşları seçkilərdən yayındırmağa çalışmaq, dövlətin və cəmiyyətin həyatında iştirakdan çəkindirməyə cəhd, konstitusion normanın pozulmasıdır. Bu qarşıdurmalarla özləri üçün yaratdıqları torda ilişib qalacaqlar, qərarları öz əleyhlərinə işləyəcək".

Beləliklə, yenidən başladılan əks-təbliğat kampaniyası isə, növbəti mərhələyə keçid alıb. Bu kimi davamiyyət isə, ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək.

**Rəfiqə HÜSEYNOVA**

# Cari ilin qəbul imtahanlarında 3.127 abituriyent 600 baldan yuxarı nəticə göstərib



2018-2019-cu tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının ilkin nəticələri məlumdur. AZƏRTAC Təhsil Nazirliyinin məlumatına əsasən bildirir ki, statistik təhlilə görə, son beş ildə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul üzrə proqnoz yerlərinin sayı 20,8 faiz artıb. Eyni zamanda, son beş tədris ilində I-IV ixtisas qrupları üzrə müsabiqədə iştirak hüququ qazanmış abituriyentlərin imtahan ballarında xeyli artım olub. Bu dövrdə qəbul imtahanlarında müsabiqə şərtlərini ödəyən abituriyentlərin sayında da ciddi artım müşahidə edilib. Belə ki, ötən il müsabiqə şərtlərini ödəyən və tələbə statusunu qazanmaq hüququ olan abituriyentlərin (imtahanlarda 200 baldan artıq nəticə göstərənlər) sayı 35.790 nəfər olduğu halda, cari ildə bu göstərici 6,7 faiz artaraq 38.201 nəfər təşkil edib.

Qeyd edək ki, cari ildə keçirilmiş qəbul imtahanlarının ikinci mərhələsinin nəticəsinə əsasən, I-V ixtisas qrupları üzrə 40.806 abituriyent tələbə adını qazanıb. Bununla yanaşı, son beş ildə I-IV ixtisas qruplarının hər biri üzrə və bütövlükdə tələbə qəbulunun keyfiyyət göstəricilərində (keyfiyyət göstəricisi qəbul imtahanlarında müsabiqə şərtlərini ödəyən abituriyentlərin sayına görə müəyyənləşdirilir) də nəzərə çarpacaq dərəcədə artım (18,2 faiz) müşahidə olunur . 2017-2018-ci tədris ilində 2014-2015-ci tədris ilinə nisbətən ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində dayanıqlı artım dinamikası müşahidə edilir. Belə ki, son beş ildə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26,5 faiz, 400 baldan çox toplayanların sayı 35,1 faiz, 500 baldan çox toplayanların sayı 51,5 faiz, 600 baldan çox toplayanların sayı isə 81,3 faiz artıb. Bu isə ali təhsil müəssisələrinin, eləcə də qəbul olunanların orta bal göstəricilərinin artması deməkdir. Cari ilin qəbul imtahanlarında 3.127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərib. Bu göstərici ötən il 2472 nəfər, 2016-cı ildə 2281 nəfər, 2015-ci ildə 2094 nəfər, 2014-cü ildə isə 1725 nəfər təşkil edib. Bu tədris ilində 29 abituriyent 700 bal toplayib. Ötən il bu göstərici 15 nəfər olub.



## *Siyasi manyaklıq*

RƏFİQƏ

***Hər dəfə olduğu kimi, AXCP-nin mərhum lideri Əbülfəz Elçibəyin ölümünün növbəti ildönümü günü müxalifət düşərgə liderləri arasında maraqdoğurucu ittihamlar yaşanır. Bu dəfə də, yəni avqustun 22-də Ə.Elçibəyin ölüm günü ilə bağlı yenidən bu cür olaylar yaşandı. Ə.Elçibəyin Fəxri Xiyabandakı məzarını ziyarət edən "liderlər" yenə də oraya ayrı-ayrılıqda getdilər. Səbəbi isə, əslində, çoxdan bəllidir. Bəllidir ki, iki qoçun başı bir qazanda qaynamaz. Yəni həm AXCP, həm də Müsavat, eləcə də, KAXCP rəhbərliyi artıq başqa-başqa müxalifətçilik mövqeyindədirlər və bundan sonra onların yenidən birgə olması qeyri-mümkün məsələdir. Qarşıdurma elə bir həddə qədər çatıb ki, adicə məzar ziyarətinə belə, bir yerdə getməmək üçün müxtəlif bəhanələr axtarırlar. Düzdür, Əli Kərimlinin İsa Qəmbərə və İsa Qəmbərin də Əli Kərimliyə patoloji nifrətləri hər kəsə gün kimi aydındır. Bu, öz yerində. Ancaq vaxtilə onları bir şineldən çıxaran Elçibəyin məzarına ayrılıqda getmələri onun ruhuna edilən ən böyük xəyanət deyilmi? Gör mən bu vətəni, xalqı, dövləti satanlardan nə umuram.***

### Budur onların "Rəsulzadə-Elçibəy" yolu?

Görün vəziyyət, adıçəkilən düşərgədə nə həddə çatıb ki, müxalifəti, düşərgəni, siyasi ambisiyaları üçün monopolilayalaşdırmağa cəhd edən Ə.Kərimli və İ.Qəmbər indi də Elçibəyin adını monopoliyalaşdırmağa çalışırlar. Özü də həm doğum, həm də ölüm günlərində!

KXCP sədri Mirmahmud Mirəlioğlunun düşdüyü vəziyyət də acınacaqlıdır. Belə ki, əvvəllər Elçibəyin məzarına "Milli Şura" tərkibində qatılan M.Mirəlioğlu indi oradan səsli-küylü istefa verərək Ə.Kərimlini, Cəmil Həsənlini saya salmayan, hətta təhqir belə edən Müsavat yetkililəri ilə Fəxri Xiyabana gedib. Yahu, budurmu onların "Rəsulzadə-Elçibəy" yolu? Budurmu onların danışdıqları zaman ağızlarına sığışmayan çullu dovşan?

Reallıq budur. Həqiqət budur ki, ömürləri boyu "ana müxalifət" adı uğrunda cırmaqlaşan, yırtışan, dartışan, bir-birlərinə diş qıcıyıb ağız atan müxalifət başbilənləri adicə məzarlığa belə bir yerdə getməyə cürət etmirlər.

### Çünki siyasi manyaklardır

Bu arada daha bir maraqdoğurucu hadisəni xatırlatmaq istərdim. Əbülfəz Elçibəy dəfn olunarkən, onun qardaşı Almurad Əliyev Ə.Kərimlini dəfn mərasimindən qovmuşdu. "Rədd ol buradan, sənin bu yerə ayaq basmağın günahdır!" deyən Almurad ağa elə bununla da "Yurd" şefinin ağzının payını vermişdi. Ancaq nə faydası, həyasız ünsürlərdən nə gözləmək olar? Qapıdan qovursan, pəncərədən girirlər. Həyasızda nə ar olur, nə də abır.

İndi də abırlarını, həyalarını bir kənara qoyaraq, utanmazcasına Elçibəyin qəbri üstünə gedib, salavat çevirirlər. Bir gün həmin salavatın onlara qənim olacağını isə düşünmürlər. Çünki düşünməyi bacarmırlar.

Düşərgədə hər şeyi monopoliyalaşdıraraq siyasi dividendlərini güdənlərin bu gün rəhmətlik Elçibəyə də göz dikmələri, yəqin ki, onların həm də nə qədər siyasi manyak olduqlarını sübuta yetirir. Hər halda, harada belə şeyləri axtarsan, tapa bilməzsən, yalnız burada, Azərbaycanın dağıdıcı müxalifətində bu cür monopoliyalaşdırılmanı görə bilərsən!

# Əli Kərimli "tərksilah" olunur

## *Facebook sosial şəbəkədə saxta profillər açmaqla zorakılığı təbliğ etməyə son qoyulur*



***Azərbaycan dövlətinə və xalqına qarşı düşmən mövqeyi ilə seçilən dağıdıcı xislətli müxalif partiya sədrlərinin ətrafındakı halqa getdikcə, bir qədər də daralmaqdadır. Artıq cəmiyyətin onlara olan mənfi münasibəti fonunda partiya üzvlərinin kütləvi istefaları ilə yanaşı, xaricdəki anti-Azərbaycan qüvvələr də mövqelərində dəyişiklik etməyə başlayıblar. Yəni sonuncular yarıtmaz və naşı müxalif ünsürlərlə əməkdaşlıqdan imtina kursu götürürlər. Bu isə, dağıdıcı müxalifət üçün intihara bərabərdir. Qısaca desək, siyasətdən getmələri deməkdir. Çünki sosial baza olmasa da, maliyyə imkanları hesabına siyasətdə sürünmək mümkündür. Ancaq maliyyə vəsaiti olmadığı halda, siyasətdə qalmaq, boş-boşuna meydanda veyillənmək deməkdir. İddialı və təkəbbürlü müxalifət yetkililəri isə, adlarının avaralar siyahısında əks olunmasını istəmirlər. Onlar mətbuatda görünmək və meydanlarda qışqırmaq iddiasındadırlar.***

### Cəmil Həsənli "Milli Şura" ilə əlaqələrini kəsib

Məlumatlara görə, "Milli Şura"nın sədri Cəmil Həsənlinin son üç ayda dörd dəfə Avropaya və ABŞ-a üz tutması, üzləşdikləri maliyyə problemlərini aradan qaldırmağa hesablanmışdır. Ancaq səfərlər nəticəsiz qalıb. Xarici ölkələrdən, əli ətəyindən uzun qayıdan C.Həsənli, artıq acı taleyi ilə barışaraq, demək olar ki, "Milli Şura" ilə əlaqələrini kəsib. Son bir ayda, C.Həsənli qurumun koordinasiya şurasının toplantılarına qatılmır. Telefonlarını da söndürdüyündən, onunla əlaqə saxlamaq da mümkün deyil.

C.Həsənlinin açıq şəkildə "Milli Şura" ilə əlaqələrini kəsməsi, Ə.Kərimlinin kürkünə birə salıb. Çünki "Milli Şura"ya toplaşanlar, əsasən, vaxtilə elm adamı olmuş C.Həsənliyə görə qurumda qalırlar. C.Həsənlinin gedişi, o deməkdir ki, "Milli Şura" daxilində vəlvələ yaranacaq və istefalar baş verəcək. Bunu Ə.Kərimli dərk edir. Ona görə də, qabaqlayıcı tədbirlər görməyə, ən azı qurumdan baş verəcək istefaların sayını azaltmağa çalışır. Bunun üçün sosial şəbəkələrin imkanlarından da yararlanmağa cəhd edir. Amma məsəl var, "bəla gələndə, batmanla gələr". Ə.Kərimli üçün bəla özünün əməllərinin nəticəsi olaraq gəlməkdədir. Çünki Facebook sosial şəbəkəsində, zorakılıq təbliğ edən, terrora çağırış olan saxta profillərin bağlanması barədə qərar verilib. Artıq proses də başlayıb. Belə ki, Myanma ordusuna aid bir neçə hesab və səhifə bağlanıb. Facebook bu addımını Myanma əleyhinə "nifrət və yanlış məlumatların" qarşısını almaq üçün atıb. Şirkət Facebookda 12 hesab və 52 səhifə, İnstaqramda isə 12 milyon izləyicisi olan hesabı sıradan çıxarıb. Qərara uyğun olaraq, sosial şəbəkədə, ümumilikdə, 20 Myanma vətəndaşı, o cümlədən, baş komandir Min Aunq Xlayn və hərbi telekanal "Myawady" istifadədən məhrum edilib. Məlumatlara istinadən, demək olar ki, "Twitter" sosial şəbəkəsi də həqiqi olmayan səhifələri bağlamağa qərar verib. Bütün bunlar, o deməkdir ki, artıq kərimlilər və hacılılar sosial şəbəkələr üzərində saxta profillər açaraq, terroru və zorakılığı təbliğ edə, insanları iğtişaşlara çağıra bilməyəcəklər.

### Dağıdıcı ünsürlər saxta profillər aça bilməyəcəklər

Dağıdıcı ünsürlərin, xüsusilə də, Ə.Kərimlinin və onun ətrafının Facebookda çoxsaylı saxta profillər yaradaraq, insanları təhqid və təhqir etməsi siyasi arenanın ən ikrah doğuran problemlərindəndir. Dəfələrlə, Facebook istifadəçiləri, siyasi partiya funksionerləri tərəfindən Ə.Kərimliyə "silahını yerə qoy" çağırışı ilə müraciətlər olunsa da nəticəsi olmayıb. Ə.Kərimli, kor tutduğunu buraxmayan kimi, bəd əməllərindən əl çəkməyib. Əksinə, daha həyasız və şivən formasında yaramaz fəaliyyətini davam etdirib. Verilən məlumatlara görə, Ə.Kərimlinin və ətrafının, ümumilikdə, 110-a yaxın saxta Facebook səhifəsi var. AXCP və "Milli Şura" üzvləri qarşısında tələb qoyan Ə.Kərimli onlardan saxta profillərin sayını artırmağı tələb edir. Bu yolla o, çirkin siyasətini təbliğ etmək və eyni zamanda, insanların şərəf və ləyaqətini alçaltmağa və təhqir etməyə çalışır. Amma onun fəaliyyəti boş qazanı döyəcləməkdən başqa bir şey deyil. Çünki cəmiyyət onun simasına və sifətinə bələd olduğundan, sosial şəbəkələr vasitəsi ilə apardığı təbliğatı da ciddi qəbul etmir. Vaxtaşırı cəmiyyətin özü ona və ətrafında olanlara tutarlı cavab verirlər. Facebookun son qərarı, Ə.Kərimlinin bu istiqamətdəki fəaliyyətini də alt-üst etmiş olacaq.

***İ.ƏLİYEV***

# Leyla Yunusun nəyinə etibar etmək olar?

## *Vətən və dövlət xaininə, hətta avropalılar belə inanmır*



İstənilən ölkədə müxalif insanlar, hakimiyyətin yürütdüyü siyasətə və ya qəbul etdiyi qərarlara qarşı barışmaz və ya liberal mövqe tutan insanlar olur. Amma fikir müxtəlifliyi, fərqliliyi və müxalifliyi adı ilə ölkənin maraqlarına zərbələr vurmaq, hüquqlarının qorunduğu iddia edildiyi insanların haqlarını oğurlamaq və onların adından siyasi alver aparmaq çirkin və natəmiz əməldir.

Bəlli olduğu kimi, "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri L.Yunusun əri Arif Yunusdan məhkəmənin qərarı ilə başqa yerə getməmələri barədə iltizam alınıb və azadlığa buraxılıb. Məhkəmənin L.Yunus barəsində çıxardığı humanist qərar, ilk növbədə, onun sağlamlıq durumu ilə əlaqələndirilir. Lakin bu humanistliyin qarşısında A.Yunusun yenə də öz çirkin əməllərindən əl çəkməməsi, bir daha onların nə qədər rəzil və həyasız olduğunu göstərir. Faktlar və dəlillər də deyilənləri təsdiqləyir. Bu, o L.Yunusdur ki, ayrı-ayrı saytlarda din pərdəsi altında terrorçu "Müsəlman Hərəkatı Birliyi" təşkilatının sədri Taleh Bağırzadəyə dəstək nümayiş etdirmişdir. Azərbaycanda məlum xəyanətlərinin hesabını tam şəkildə ödəməmiş, məhz ölkə rəhbərliyinin humanistliyi sayəsində azadlığa çıxan və Bakı Apellyasiya Məhkəməsində L.Yunus və həyat yoldaşı A.Yunusun barəsində çıxarılmış hökmdən verilmiş şikayət üzrə məhkəmə prosesində iştirak etmədiyi halda, bir də pozucu əməllərini sifarişlə həyata keçirən şeytan cildində olan T.Bağırzadənin müdafiəsinə qalxması heç də təəccüb doğurmadı. Çünki hər ikisi şeytanla belə iş birliyi quranlardır. Ancaq T.Bağırzadə kimi din dəllallarını müdafiə edən L.Yunus kimilər bilməlidirlər ki, cinayətkar törətdiyi cinayət əməllərinə görə cəzasını çəkməlidir.

### Siyavuş Novruzov: "Milliyyətcə erməni olan L.Yunus Avropa üçün lazımsız adamdır"

Sözügedən məsələ ilə bağlı YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov açıqlamasında bildirir ki, milliyyətcə erməni olan L.Yunus Avropa üçün lazımsız bir adamdır: "Avropa İttifaqı da başa düşür ki, L.Yunus yararlı deyil. Hətta onları saxlamaq baha başa gəlir. Bu baxımdan, ayrı-ayrı ölkələr hesabına bunlara yardım göstərirlər ki, orada yaşasınlar. Leyla Yunus iddia edir ki, Avropada filankəslə görüşdüm, behmənkəslə görüşdüm. Axı sən hansı səlahiyyətə maliksən, kimsən ki, səninlə görüşsünlər?!"

YAP İcra katibinin müavini S.Novruzov L.Yunusun adət etdiyi çirkin əməllərindən əl çəkə bilmədiyini vurğulayıb: "Əli Kərimli ilə əlbir olub insanlara saxta sənəd düzəldirdilər ki, guya kimlərsə siyasi baxışlarına görə saxlanılıb. Halbuki toyuq, ev oğurluğu və başqa cinayət əməllərinə görə həbs olunmuş adamların valideynlərindən pul alaraq, onlara saxta sənəd düzəldirdilər. İctimaiyyətimiz Leyla Yunus kimilərinin yalanlarına və satqınlığına inanmır".

Göründüyü kimi, daim Azərbaycan dövlətinə və xalqına qarşı qərəzli mövqe tutmuş L.Yunus və A.Yunus əsl cinayətkar və xəyanətkardırlar. Onlar, heç bir halda, erməni lobbisinə işləməkdən çəkinməyəcək və daim anti-Azərbaycan mövqeyində duracaqlar. Belə olan halda, L.Yunusun nəyinə etibar etmək olar? Əlbəttə ki, ortaya qoyulan faktlara baxsaq, heç nəyinə.

***R.HÜSEYNOVA***

# Sentyabr yağışla gəlir...



Ölkə ərazisində sentyabrın 1-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 28-32° isti olacaq.

Abşeronun şimal çimərliklərində-Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun temperaturu 24-25°, cənub çimərliklərində-Türkan, Hövsan, Sahil və Şıxda isə 25-26° isti olacağı proqnozlaşdırılır. Çimərliklərdə şimal-şərq küləyi əsəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 1-2-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi gözlənilir. Bu da meteohəssas insanlar üçün əsasən əlverişli hesab edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Temperaturun gecə 17-22°, gündüz 32-37°isti olacağı bildirilir. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Havanın temperaturu gecə 12-17°, gündüz 20-25° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı gözlənilir. Havanın temperaturunun gecə 17-22°, gündüz 28-33° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı proqnozlaşdırılır. Havanın temperaturunun gecə 16-21°, gündüz 27-32° isti, dağlarda gecə 10-15°, gündüz 23-27° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Temperatur gecə 18-23°, gündüz 30-35° isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı gözlənilir. Havanın temperaturu gecə 20-23°, gündüz 29-34° isti, dağlarda gecə 12-17°, gündüz 23-28° isti olacaq. Respublikanın bölgələrində şərq küləyi əsəcək.

# Telefon qutusundan marixuana çıxdı




Quba Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən rayon sakini, əvvəllər dəfələrlə məhkum olunmuş 42 yaşlı Ülvi Fərzəliyevi saxlayıblar. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, RPŞ-nin əməkdaşları tərəfindən Ü.Fərzəliyevin üzərinə keçirilən baxış zamanı onun əlindəki telefon qutusundan ümumi çəkisi 410 qram olan qurudulmuş marixuana aşkar edilərək götürülüb. Saxlanılan şəxs istintaqa təhvil verilib, maddi sübutlar isə ekspertizaya təqdim olunub. Faktla bağlı Quba RPŞ-də araşdırma aparılır.

# Postmodernizm və ailə hüquqları

***Müasir meqapolisdə bir çox ailə problemləri - sivilizasiyanın "inkişaf" tendensiyalarının və onun törəməsi olan - müasir meqapolisin inikasıdır. Ailənin insanın yaranması ilə dərhal meydana gəlməyən insanlığın mədəniyyət nailiyyətlərindən biri olması və ailənin, sivilizasiya inkişaf etdikcə, daha az tələb olunan olması, məqsəd, dəyər və əhəmiyyəti haqqında düşünməyə vadar edir.***

Modernist cəmiyyətin yerinə - onun bəsitdən mürəkkəbə doğru inkişaf ideyası, rasionalistliyi, ağıllılığı, ictimai həyatı dəyişdirmə zəruriliyi ilə birlikdə - postmodernist cəmiyyətin konsepsiyası gəlir.

Hələ modernitinin başlanğıcında Fərdiyyət (şəxsiyyət) "mövcud olma", "ilahi səbəblər ardıcıllığı"nın məhsulu olmaqdan çıxıb, hər konkret insan tərəfindən həll olunan "problem", fərdi vəzifəyə çevrilib. Bu cəhətdən, "klassik" moderniti ilə postmoderniti dövrü arasında heç bir fərq yoxdur. Problemin mahiyyəti yeniləndi; yeni üsulla bundan irəli gələn məsələlər həll olunur. Öz klassik formasında modernitiyə xas olan əksər qadın və kişi üçün kimlik məsələsi, əmlak və statusa varis olmaqla deyil, müvəffəqiyyət və varlanma yolunda öz ictimai mövqeyini əldə etmə zərurətindən, ona öz şəxsi səy və ehtiyatları hesabına çatmaqdan ibarətdir.

Roidə Rzayevanın fikrincə, postmodernistlərin əsas ideyası - artıq mövcud olan "köhnə"yə "yeni"ni daxil etməkdir. Postmodernizm nöqteyi-nəzərindən ailə, cəmiyyətin normativ strukturuna yerləşdirilmiş, bir tərəfdən sosial inkişaf, digər tərəfdən cəmiyyət üzvlərinin (ər-arvad, valideynlər, uşaqlar) davranışının tənzim edilməsi, sosial rolların və sosial statusun təyin edilməsi vasitəsilə həyata

Ənənəvilikdə sosial və coğrafi mobillik modernizm şəraitinin yüksək mobilliyindən fərdi fəallığın göstərilməsi ilə fərqlənir.

S.A.Kravçenko göstərir: "İyerarxiyasında ilk yeri vəzifə, adətlərə, avtoritetlərə riayət etmək, taleyə təslim olmaq, ailə məsuliyyətinin, uşaqların valideynlərin gələcək firəvan qocalığı üçün əhəmiyyəti və s. uca tutan familizmin (qohumbazlığın) dəyərlər sisteminin, valideyn avtoritetinin və kişi üstünlüyünün nüfuzu, modernləşdikcə fərdçiliyə, sərbəstliyə, şəxsiyyət haqlarına, seçim azadlığına, şəxsi nailiyyətlərin əhəmiyyətinə, özünü aktuallaşdırmağa və s. yer verərək azalır. Buna səbəb ailənin əsas tipinin geniş ailənin nuklear ailə ilə əvəz olunmasıdır.

Müasirliyə, eyni zamanda, böyüklərin hakim mövqe tutduğu üç nəsildən ibarət mərkəzləşdirilmiş, genişləndirilmiş ailə-qohumluq sistemindən desentralizasiya olunmuş nuklear ailələrə keçid xasdır.

Modernə şəxsi həyatın demokratikləşməsi və emansipasiya prosesləri xasdır".

Fəlsəfə elmləri doktoru Rəfiqə Əzimova yazır: "I. Bildiyimiz kimi, cəmiyyət mücərrəd məfhum deyil. Burada bir sıra təbəqələr, makro və mikro sistemlər, ictimai birliklər cəmiyyətin, bütövlükdə, çoxşaxəli fəaliyyətini əks etdirir. Bununla bəolunur. Məhz bunun nəticəsidir ki, bu günkü yeniyetmə və gənclərin arasında deviant (normadan kənara çıxan) davranış qaydaları teztez gözə çarpır, daha dəqiq desək, bu gün yeniyetmə təbəqəsinin içərisindən cinayət işlərinə qurşananlar cəmiyyətimizi narahat etməyə bilməz.

III. Sözsüz ki, cəmiyyətimiz yeniyetmə və gənclərlə bağlı bu növ problemlərdən çıxış yolu axtarmalıdır. Zənimcə, ilk növbədə, yerli bələdiyyələr səviyyəsində qeyri-firavan ailələrin uşaqlarına məqsədyönlü xüsusi nəzarət və diqqət artırılmalıdır. İndiyə qədər son iyirmi ildə bu məsələ həll olunmamış qalıb. Yeniyetmə uşaqların məktəbdənkənar tüfeyli küçə həyatı keçirmələrinə görə, valideynlər və məktəb kollektivi məsuliyyət daşımalıdır".

Ailənin cəmiyyətin və dövlətin tərəqqisində oynadığı rolu mütəfəkkirlər və sosioloqlar da təsdiqləyirlər. Onlar insanın şəxsiyyət kimi yetişməsində, sosiallaşmasında xalqın milli-mənəvi keyfiyyətlərinin gələcək nəsillərə ötürülməsində ailəni altqurum hesab edirlər. Amerikalı sosioloq Parsonsun fikrincə, ailə cəmiyyətə qarşı durmur, əksinə, sosiumun stabilliyini təmin edən altsistemdir: "Ailə digər sosial altsistemlər və strukturlarla münasibətlər qurmaq üçün dəqiq, eyni zamanda, şəxslərarası sabitliyin

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

keçən dəyərcə-normativ kompleksi təmsil edən xüsusi sosial təsisat kimi təhlil edilir.

Ailənin postmodern dövrdə inkişafını təhlil edən nəzəriyyə konsepsiyaların diqqət mərkəzində ənənəvi ailədən postmodern dövrün ailəsinə keçid problemi dayanır. Postmodern dövrünün ailəsində aqrar cəmiyyətdə funksional zərurəti təşkil edən qəti normalardan, davam edən uzunmüddətli uzaqlaşma tendensiyası müşahidə olunur. Tarixin hərəkətverici qüvvələri ilə əlaqədar, nöqteyi-nəzərlərin müxtəlifliyinə baxmayaraq, cəmiyyət və ailənin dəyişməsini səciyyələndirən faktlar yığını mövcuddur.

Adətən, bu məqsədlə "ənənəvi" və "müasir" ailə modelinin müqayisəsi istifadə olunur.

Birincisi, "ənənəvilikdə", hər şeydən əvvəl, ictimai həyatın qohumluq-ailə təşkilat prinsipi, qohumluq dəyərlərinin fərdin maraqlarının maksimallaşmasına və iqtisadi effektivliyinə üstün gəlməsidir. Moderinizm, əksinə, qohumluğu sosial-iqtisadi və siyasi həyatdan ayırır, qohumluq maraqlarını fərdin iqtisadi maraqları ilə dəyişdirir.

lə, cəmiyyətin özəyini, fikrimizcə, ailə mikromühiti təşkil edir. İnsanın cəmiyyətə adaptasiya mərhələləri, məhz ailə ocağından başlanır. Psixoloqlar hesab edirlər ki, uşaqların beş yaşına qədər biliklərin mənimsəməsi gələcək adaptasiya prosesində mühüm əhəmiyyət kəsb edir. Həssaslıq, müraciət qabiliyyəti, məsuliyyət hissi, danışıq qabiliyyətinin təməli bu yaş dövründə daha aktiv mənimsənilir.

Bu gün Azərbaycan müasir ailəsi nə dərəcədə və hansı əlamətlərə görə ənənəvi ailədən fərqlənir?

**1.** az uşaqlı ailələr çoxluq təşkil edir;
**2.** ailənin maddi-psixoloji durumu;
**3.** valideynlərin mədəniyyət səviyyəsi;
**4.** boşanmaların artması;
**5.** əcnəbi nikahların artması;
**6.** valideynlərin qarşılıqlı məsuliyyət meyilinin azalması.

II. Azərbaycan ailəsinin son iyirmi ildə, demək olar ki, ekstremal vəziyyətdə yaşaması (keçid mərhələsinin Qarabağ muharibəsi ilə üst-üstə düşməsi), obyektiv olaraq, valideynlərin uşaqlarına qarşı diqqətsizliyin artması müşahidə dinamikasının və inteqrativ tendensiyaların qorunması istiqamətində təsirli əlaqələr yaradır".

Fransız sosioloq E.Durkheim isə funksionalizmin "atası" kimi ailə həyatında hər bir fərdin roluna diqqət çəkərək, ailəyə aid edilən həmrəylik və birlik mexanizmlərinin axtarılmasına, qadın və kişinin roluna birbaşa təsir göstərmişdir.

Ə.Süleymanov yazır: "Qədimdən bəri ailə institutu Azərbaycan cəmiyyətində xüsusi dəyər kəsb edib. Tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu kimi mühüm rol oynamışdır. Eyni zamanda, Azərbaycan ailəsi özünəməxsusluğu və yüksək mənəvi dəyərlərə bağlılığı ilə seçilmişdir. Ölkəmizdə ailəyə yüksək qiymət verildiyi kimi, Azərbaycan xalqı da yeni qurulan ailəyə müqəddəs bir hadisə kimi baxmış, onun ülviliyini qorumuş və təməlinin möhkəm olmasına çalışmışdır. Bütün dünyada olduğu kimi, Azərbaycanda da qloballaşma, kommunikasiya vasitələrinin sürətli inkişafı, istehlak cəmiyyəti, fərdiyyətçilik və milli-mənəvi dəyərlərin aşınması ailə institutuna təsir göstərir, problemləri həlletmə mexanizm vəzifəsini yerinə yetirməsi vacib olan ailənin özünün problem yaradan bir qurum halına gəlməsinə səbəb olur. Ailədə boşanma, vətəndaş nikahları və nikahdankənar doğumların artması kimi mənfi tendensiyaların artması bu prosesin birbaşa təzahürü kimi ortaya çıxır".

İnsanlığın sivilizasiyasının inkişaf tarixi boyunca, vacib sosial qurum kimi ailə təkamül edib, müxtəlif şəkillər alıb, onun funksiyaları dəyişib, ailənin qarşısında cəmiyyət inkişafının bu və ya digər mərhələsi ilə bağlı yeni problemlər durub.

Təkamül nəticəsində müasir ailə qurulub, postmodern dövrünün ailəsi, hansına ki, yeni problemlər xasdır.

Bununla əlaqədar R.Rzayeva yazır: "Ailənin fəlsəfi təhlilinin mühüm bir mərhələsini müəyyən mədəniyyətin özünəməxsus cəhətlərinin meydana çıxarılması təşkil edir. Bu, xüsusən, sintez strukturlu mədəniyyətlər üçün çox vacibdir. Həmin strukturun müxtəlif səviyyələrinin təhlili nəticəsində, müəyyən mədəniyyətin zahiri təzahürləri arxasında bu mədəniyyəti daşıyan cəmiyyətin şüur sxematizmlərini görmək mümkündür. Çünki burada ənənəvi və müasir elementlərin, eyni zamanda, mövcud olması müasir cəmiyyəti formalaşdırır.

Ənənə və müasirlik nisbəti məsələsində cəmiyyətin psixoloji arxetipik xassələrinin çox böyük əhəmiyyəti vardır. Sintez strukturlu cəmiyyətlərin dünyagörüşü xüsusiyyətləri dəyişikliklərə açıq olması ilə izah edilir. Yəni sintez strukturlu cəmiyyətlərin timsalında müxtəlif psixoloji xüsusiyyətlərin "yanaşı yaşamasını" müşahidə edirik. Bu xüsusiyyətlərin bir çoxu regional mənsubiyyəti Şərq - Qərb, Avropa - Asiya olan ölkələrə xasdır".

Bizdə ailənin xüsusiyyətləri, məhz Azərbaycan gerçəkliyini və Azərbaycan xarakterini əks etdirir. Burada həm modern dünya anlayışı və müasir dəyərlərin, eyni zamanda, milli xüsusiyyətlərin, xüsusilə də, mənəvi-etik dəyərlərin sintezi müşahidə olunur. Millətlərin qarşılıqlı təsiri və mədəni çoxölçülüyü problemi ilə bağlı olan qloballaşma milli özünəməxsusluğun qorunması, ilk növbədə, o cümlədən, ailə ilə bağlıdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 1 sentyabr


## Ofisdə çalışanlar oynaq xəstəlikləri və piylənmə ilə daha çox üzləşirlər

Oturaq iş, stress və qeyri-müntəzəm qidalanma orqanizmdə müəyyən narahatlıqlara səbəb olur. Həmin vəziyyətlə qarşılaşanların çoxu günün əsas hissəsini qapalı məkanlarda çalışanlardır.



AZƏRTAC xəbər verir ki, statistikaya görə, ofis işçiləri həftənin 45-70 saatını oturaq vəziyyətdə keçirirlər. Həmin rejimə alışdıqları üçün ilk vaxtlar onların orqanizmində heç bir narahatlıq hiss edilmir. Lakin zaman keçdikcə iş rejimi, qapalı mühit, oksigenin kifayət qədər olmaması və hərəkətsizlik öz fəsadlarını göstərir.

Ofis işçilərinin ən çox üzləşdikləri narahatlıqlar sırasında oynaq xəstəlikləri üstünlük təşkil edir. Uzun müddət oturaq həyat keçirənlərdə ayaq əzələləri zəifləyir və müəyyən fəsadlara zəmin yaranır. Ofis şəraitində hava-damcı infeksiyalarına tez yoluxmaq da mümkündür. Çünki iş şəraitində müxtəlif bakteriyaların çoxalması üçün münbit şərait mövcuddur. Mütəxəssislərin dediyinə görə, qapalı məkan şəraitində işləyənlər əlləri, o cümlədən də tez-tez toxunulan əşyaları nəm salfetlərlə təmizləməli və dezinfeksiya etməlidirlər.

Oturaq iş rejimi artıq çəki əmələ gəlməsinə səbəb olur. Buna görə iş zamanı ara vermədən qidalanmaq yolverilməzdir. Britaniyanın elm adamları belə qənaətə gəliblər ki, ac olmadan qəbul edilən karbohidrat orqanizmdə artıq piy toxumasına çevrilir. Ona görə də yeməkdən 20 dəqiqə sonra yarım saat açıq havada hərəkət etmək məsləhət görülür. Qapalı, havasız mühit immunitetin zəifləməsinə, nəticədə isə ürək-damar sistemi xəstəliklərinə zəmin yaradır. Bu məqam stressə də yol açır və yuxusuzluğun yaranmasına təkan verir. Müəyyən edilib ki, oturaq iş rejimində stressdən uzaq olmaq üçün zəncəfil çayı içmək, tez-tez havaya çıxmaq və sintetik materiallardan istifadə etməmək zəruridir. Ümumiyyətlə, ofis şəraitində işləyənlər stress keçirdikdə və çox yoruluduqda 3-4 günlük məzuniyyət götürməli, təmiz havada vaxt keçirməlidirlər. Yorğunluq keçməyəndə həkimə müraciət etmək mütləqdir.

## Yüksək temperaturu aşağı salmaq üçün ılıq su islatmasından istifadə kifayətdir

Bəzən bədən temperaturunun yüksəlməsi, xüsusilə uşaqlarda qızdırma zamanı onu müxtəlif üsullarla aşağı salmağa çalışırlar. Doğrudur, həmin üsulların bəziləri ənənədən qaynaqlansa da, onların kor-korana şəkildə yerinə yetirilməsi xeyirdən çox ziyan verə bilər. AZƏRTAC xəbər verir ki, pediatrlar yüksək temperaturu aşağı salmaq üçün istifadə olunan sirkə, spirt, buzlu və soyuq su ilə yuyundurmaq və müxtəlif qarışıqları dəriyə çəkmək kimi üsulların yolverilməz olduğunu bildirirlər.



Mütəxəssislər bildirirlər ki, qusma, ishaldan əziyyət çəkməyən, ümumi vəziyyəti normal sayılan və qidalanmasında problem olmayan uşaqlarda 38 dərəcədən yüksək temperaturu endirmək üçün ılıq su islatması kifayətdir. Soyuq, buzlu su ilə yuyundurmaq, sirkəli su, spirtlə bədəni silmək uşağın temperaturunu aşağı salmaq əvəzinə sorularaq zəhərlənməyə səbəb ola bilər. Ən dəhşətlisi isə uşağa soyuq və buzlu su ilə islatma qoymaqdır. Həmin üsul temperaturu aşağı salmır, əksinə, onun bədəndə qalmasına səbəb olur.



## Qurban Qurbanov: “Çətin və maraqlı qrupa düşdük”

Çətin və maraqlı qrupa düşdük. Bir tərəfdən sevindirici haldır ki, “Arsenal” və “Sportinq” kimi avrokuboklarda təcrübələri olan klublarla qarşılaşacağıq. AZƏRTAC xəbər verir ki, bu sözləri “Qarabağ” klubunun baş məşqçisi Qurban Qurbanov Avropa Liqasının qrup mərhələsinin püşkatma mərasiminin nəticələri barədə açıqlamasında deyib.

Q.Qurbanov qeyd edib ki, ötən mövsümdə qrupdakı rəqiblər də çətin idi. “Ağır oyunlar keçirdik. Ən azından azarkeşlərimiz bu matçlardan həzz aldılar, bəzi oyunlar bizim üçün arzuolunmaz oldu. Hər bir halda, elə böyük komandaların Bakıya gəlməsi azarkeşlər üçün xoş oldu. Eləcə də bu mövsümdə azarkeşlərimiz bu komandalarla oyunları səbirsizliklə gözləyəcək, biz də onların etimadını doğrultmağa çalışacağıq. Bu qrupda hər bir oyunumuz çətin olacaq”.

## Azərbaycanda keçiriləcək növbəti Qran-Prinin tarixi açıqlanıb



2019-ci ildə Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinin tarixi açıqlanıb. AZƏRTAC xəbər verir ki, gələn il yarış aprelin 28-də keçiriləcək. Qeyd edək ki, ötən il aprel 27-dən-29-dək Bakıda keçirilən Formula 1 Azərbaycan Qran Prisinin qalibi “Mercedes” komandasının pilotu Lyuis Hemilton olub.



## “Qarabağ”ın avroliqanın qrupundakı rəqibləri məlum olub

Avqustun 31-də UEFA Avropa Liqasının qrup mərhələsinin püşkatma mərasimi keçirilib.Monakoda keçirilən mərasimdə Avropanın 48 komandası hər birində 4 komanda olmaqla 12 qrupa bölünüb. “Qarabağ” klubu “Arsenal” (London, İngiltərə), “Sportinq” (Lissabon, Portuqaliya) və “Vorskla” (Poltava, Ukrayna) komandaları ilə birlikdə “E” qrupunda mübarizə aparacaq.

## Atletika üzrə dünya çempionu Ramil Quliyev növbəti dəfə medal qazanıb

Türkiyə millisinin heyətində çıxış edən azərbaycanlı yüngül atlet Ramil Quliyev növbəti dəfə medal qazanıb. AZƏRTAC xəbər verir ki, soydaşımız İsveçrədə keçirilən və Almaz liqasının iki finalından biri olan Sürix Weiltklasse atletika yarışlarında 200 metr məsafəni 19,98 saniyəyə qət edərək gümüş medala layiq görülüb. Bu yarışın qalibi məsafəni 19,67 saniyəyə qət edən amerikalı Noah Layls olub. Xatırladaq ki, Ramil Quliyev ötən ilin avqustunda Londonda 200 metr məsafəyə qaçış yarışında finişə 20,09 saniyəyə çataraq dünya çempionu adını qazanmışdı.

## Qonsalu Quedeş rəsmən “Valensiya”ya keçib

PSJ-nin hücumçusu Qonsalu Quedeş rəsmi şəkildə “Valensiya” klubuna keçib. SİA-nın xəbərinə görə, məlumat ispan klubunun rəsmi saytında yer alıb. 21 yaşlı portuqaliyalı 2024-cü ilə qədər müqavilə imzalayıb. Onun buraxılış qiyməti 300 milyon avrodur. Quedeş “Valenciya”da icarə əsasında oynayırdı. Hücumçu Primerada 33 matçda meydana çıxıb, 3 qol vurub, 11 məhsuldar ötürmə verib. Futbolçu DÇ-2018-də Potuqaliya millisinin heyətində yer alıb.


## ELAN

**Azərbaycan Respublikası Bakı Şəhəri İcra Hakimiyyəti Aparatının əhaliyə xidmət, fərdi və bağ evlərinin tikintisi üzrə Baş İstehsalat idarəsinin Bağlar Təsərrüfatı İdarəsi Hacıağayev İlham Abdulrza oğluna məxsus 6 noyabr 1996-cı il tarixli 1425 nömrəli 0,12 ha torpaq sahəsinin 113 nömrəli kooperativin 26 nömrəli orderi itdiyi üçün etibarsız sayılır.**



*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**